

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 21 (711) ▪ 4 iyun 2014 www.vergiler.az Qiymәti: 40 qәp.

# Azərbaycan Prezidenti Bakıda XXI Beynəlxalq Xəzər neft və qaz sərgisinin açılışında iştirak etmişdir

İyunun 3-də Bakı Sərgi Mərkəzində XXI Beynəlxalq Xəzər neft və qaz sərgisinin açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Sərginin pavilyonları ilə tanış olan dövlətimizin başçısına bildirilmişdir ki, bu il sərgidə dünyanın 29 ölkəsindən 402 şirkət iştirak edir. Sərgi meydançasının 70 faizdən çoxu dünyaca məşhur şirkətlər tərəfindən tutulmuşdur və onların arasında «Əsrin müqaviləsi»nin bilavasitə iştirakçıları vardır. Qeyd edilmişdir ki, dördgünlük sərginin işgüzar proqramı da zəngin olacaqdır. Sərgi çərçivəsində neft-qaz sənayesi nümayəndələrinin geniş auditoriyası üçün aktual seminarlar, şirkətlərin təqdimatları təşkil olunacaqdır.



Mərasimində nitq söyləyən Prezident İlham Əliyev bildirmişdir ki, Xəzər neft-qaz sərgisi ölkəmizin müasir həyatında çox önəmli rol oynayır. «Bu sərgi müstəqil Azərbaycana dünyanın diqqətini cəlb edən birinci, ən önəmli addım olmuşdur. Sərgi 21-ci dəfədir ki, keçirilir, sərgiyə maraq azalmır, artır və bu gün 400-dən artıq şirkət təmsil olunur. Onlardan bəziləri ilk dəfə iştirak edirlər, bəziləri isə bizim ənənəvi tərəfdaşlarımızdır. İldən-ilə sərgidə iştirak edən şirkətlərin sayı artmaqdadır və bu, çox gözəl hadisədir, çox önəmli əlamətdir, çünki Azərbaycanın neft-qaz sektoru öz imkanlarını genişləndirir və ildən-ilə öz fəaliyyətimizi genişləndiririk. 1994-cü ildə sərginin 1-ci tədbiri, əlbəttə ki, dünyanın neft-qaz şirkətlərinin Azərbaycanın iqtisadiyyatına diqqətini artırıb və bu diqqət bu günə qədər qüvvədədir. Son 20 il ərzində Azərbaycan neft-qaz sənayesinin inkişafı üçün və dünya enerji təhlükəsizliyinə verdiyi töhfələrə görə, əlbəttə ki, diqqət mərkəzindədir».

Dövlətimizin başçısı bildirmişdir ki, «Əsrin müqaviləsi»nin imzalanması sayəsində Azərbaycanın bugünkü uğurlu inkişafı təmin edilmişdir. Müqavilənin imzalanmasından 3 il sonra sonra - 1997-ci ildə «Çıraq» platformasından ilk neft çıxarılmışdır və Azərbaycan öz neft və qaz potensialını dünya bazarına təqdim etməyə başlamışdır. Bakı-Novorossiysk neft kəmərinin təmir edilməsi və Bakı-Supsa kəmərinin tikilməsindən sonra Xəzər dənizi Qara dənizlə neft kəməri vasitəsilə birləşmişdir: «Ondan sonra Bakı-Tbilisi-Ceyhan neft kəməri tikilmişdir. Bu da tarixi hadisə idi, çünki bu gün əgər o kəmər olmasaydı, Azərbaycan öz neft və ondan sonra qaz potensialını dünya bazarlarına çatdıra bilməzdi. Və dəhliz yaradıldı. Beləliklə, Xəzər dənizi-Qara dəniz-Aralıq dənizi əməkdaşlıq formatı formalaşmışdır və Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan bu gün uğurla fəaliyyət göstərir və başqa ölkələrə də xidmət göstərir. Dəhliz formalaşandan sonra, əlbəttə ki, Azərbaycan öz tranzit rolunu oynamağa başlamışdır və bu gün biz qeyd edə bilərik ki, artıq Azərbaycan öz coğrafi vəziyyətindən və logistika imkanlarından tam şəkildə istifadə edir. Azərbaycan Xəzər sahilinin şərq hissəsində yerləşən istehsalçılara da öz xidmətlərini göstərir və Azərbaycan üzərindən keçən neft və neft məhsullarının həcmi ildən-ilə artmaqdadır».

Azərbaycanın etibarlı tranzit ölkəsi olduğunu bildirən Prezident İlham Əliyev onu da vurğulamışdır ki, respublikamız son 20 il ərzində özünü etibarlı tərəfdaş kimi təsdiq etmişdir: «Neft-qaz sənayesində qazandığımız ən böyük uğurlardan biri də ondan ibarətdir ki, biz etibarlı tərəfdaşıq, bizim sözümüz imzamız qədər dəyərlidir və biz verdiyimiz sözə həmişə sadiq qalmışıq. Beləliklə, Azərbaycanın neft-qaz sənayesinə qoyulan sərmayə, yaradılmış gözəl investisiya iqlimi, xarici investorların sərmayələrinin qorunması, güclü siyasi iradə və qurulan gözəl beynəlxalq əməkdaşlıq bugünkü reallıqları mümkün etmişdir».

Azərbaycanın qaz ölkəsi kimi özünü dünyaya təqdim etdiyini bildirən dövlətimizin başçısı 1996-cı ildə «Şahdəniz» qaz yatağının işlənməsi ilə bağlı imzalanan sazişin xüsusi məna daşıdığını diqqətə çatdırmışdır. «Şahdəniz» dünyanın ən böyük qaz yataqlarından biridir və bizim qaz potensialımızın ən azı 50%-ni təşkil edir. O, özlüyündə böyük yataqdır, ancaq bizim digər böyük qaz yataqlarımız var. Son illərdə uğurlu kəşfiyyat işləri nəticəsində «Ümid» və «Abşeron» qaz yataqları aşkarlanıb. «Şahdəniz», «Ümid», «Abşeron» və digər yataqlarda olan qaz ehtiyatlarımız ən azı 2,5 trilyon kubmetr bərabərdir. Bu da həm Azərbaycanın, həm də Avropanın uzun müddət ərzində enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz rolunu oynayacaq: «Şadam ki, artıq bu istiqamətdə də çox vacib addımlar atılmışdır. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmişdir. Artıq 7 ildir ki, Azərbaycan öz qazını dünya bazarlarına, daha doğrusu regional bazarlara çıxarır. Bizim neft-qaz kəmərimizin çoxşaxəli vəziyyətdə fəaliyyət göstərməsi bu sahədə diversifikasiyanı tam şəkildə təmin edir. Çünki bizim 7 neft-qaz kəmərimiz var ki, bu da bütün istiqamətlər üzrə bizim resurslarımızı nəql edir».

Prezident İlham Əliyev «Şahdəniz 2» layihəsinə start verildiyinə, TANAP və TAP layihələrinə dair sazişlərin imzalanmasına da diqqət çəkmiş, bu boru kəmərlərinin Cənub Qaz Dəhlizinin reallaşmasına öz həlledici təsirini göstərəcəyini bildirmişdir.

Tədbirdə ABŞ Prezident Barak Obamanın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun Norveç Krallığının Baş naziri xanım Erna Solberqin, Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottingerin təbrik məktubları oxunmuşdur.

# İsveçrə-Azərbaycan münasibətləri intensiv inkişaf edir

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin iyunun 2-də rəsmi qarşılanma mərasimi olmuşdur.*



Qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin təkbətək görüşü olmuşdur. Görüşdə ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunmuş, qarşılıqlı görüşlərin və səfərlərin əhəmiyyəti qeyd edilmişdir. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və qarşılıqlı investisiya qoyuluşunun daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilmişdir. Prezident Didye Burkhalterin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin genişlənməsi baxımından əhəmiyyəti vurğulanmışdır.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Ali qonağı salamlayan Prezident İlham Əliyev ikitərəfli münasibətlərin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd etmişdir: «Bizim tərəfdaşlığımızın mahiyyəti həqiqətən artır, bir çox sahələri - siyasi, iqtisadi, investisiya və mədəniyyət sahələrini əhatə edir. Buna görə mən əminəm ki, qarşıdakı illərdə biz son bir neçə ildə sürətlə inkişaf edən yaxın tərəfdaşlıq əlaqələrini davam etdirəcəyik. Bu gün biz əlaqələrimizi genişləndirmək üçün yaxşı perspektivləri, xüsusilə qarşılıqlı investisiya və birgə müəssisələr sahəsində, o cümlədən artıq başlayan və çox səmərəli olacaq enerji sahəsində əməkdaşlığı da müzakirə etdik. Siz həm də ölkəmizə ATƏT-in sədri kimi səfər edirsiniz. Ümid edirik ki, regiona səfəriniz çox səmərəli olacaq, regionumuzda müsbət meyillərin inkişafına, xüsusilə də münaqişələrin həlli baxımından Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin inkişafına öz töhfəsini verəcəkdir».

İsveçrə Prezidenti Didye Burkhalter səmimi qəbula görə təşəkkürünü bildirmiş, iki ölkə arasında normal münasibətlərin mövcudluğunu diqqətə çatdırmış, İçveçrə şirkətlərinin Azərbaycana investisiya qoymaqda maraqlı olduğunu qeyd etmişdir: «Bu mənim ölkənizə ilk səfərimdir. Ölkənizlə hərtərəfli tanış olmaq üçün çox vaxtım olmayıb. Bu, ətraflı tanışlıq səfəri olmayacaqdır. Əminəm ki, biz bir daha səfər edəcəyik və regionunuzu, ölkənizi, dünən axşam gələndə və bu gün səhər də gördüyüm kimi, bizdə dərin təəssürat yaradan Bakı şəhərini daha yaxından öyrənmək üçün daha çox vaxtımız olacaqdır. Qəbulunuza görə təşəkkür edirəm. Bu, bizim iki ölkə üçün xüsusi bir vaxtdır. İlk növbədə, bizim çox yaxşı dostluq əlaqələrimiz vardır və biz onları intensivləşdirə bilərik. Əminəm ki, özəl investisiya sahəsində geniş potensialımız vardır. İsveçrə şirkətləri ölkənizə investisiya yatırmaqda maraqlıdır».

İyunun 2-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və İsveçrə Prezidenti Didye Burkhalter mətbuata bəyanatlarla çıxış etmişlər. Prezident İlham Əliyev bildirmişdir ki, bu, İsveçrə Prezidentinin Azərbaycana son 6 ildə üçüncü rəsmi səfəridir: «Mən də İsveçrəyə rəsmi səfər etmişəm. Bu da bizim əlaqələrimizin yüksək səviyyədə olmasını göstərir. Ölkələrimiz arasında siyasi münasibətlər uğurla inkişaf edir. Bu da müxtəlif sahələrdə olan əlaqələrimizə müsbət təsir göstərir. Bu yaxınlarda Bern şəhərində birgə iqtisadi komissiyanın iclası, İsveçrə-Azərbaycan biznes forumu keçirilib. Beləliklə, ölkələrimizin biznes qruplarının işbirliyi qurmaq üçün marağı vardır».

Prezident Didye Burkhalterin bəyanatında vurğulamışdır ki, ölkələrimiz arasında ikitərəfli əlaqələr intensivdir və gələcəkdə daha da dinamik ola bilər: «İqtisadi sahədə əməkdaşlığın aparılması üçün böyük potensial vardır. İsveçrə şirkətləri tərəfindən bir çox investisiyalar yatırıla bilər. Biz ölkələrimiz arasında münasibətlərin gücləndirilməsinə və intensivləşdirilməsinə açığıq. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə İsveçrənin yaxşı əməkdaşlığı vardır. Keçən il bizim ciddi əlaqələrimiz oldu və bu, göstərdi ki, Azərbaycan ilə İsveçrə arasında əlaqələr möhkəmdir. Eyni zamanda, İsveçrə bu il ATƏT-in fəaliyyətdə olan sədridir. Biz bilirik ki, bir neçə aya hər bir şeyi dəyişmək, bütün problemləri həll etmək mümkün deyildir. Buraya bu gün səhər üzərində çoxlu müzakirələr apardığımız və aparacağımız Dağlıq Qarabağ problemi də daxildir ki, bu münaqişənin həlli vaxt tələb edir. Mən, həmçinin müxtəlif fikirləri dinləmək, anlamaq və ola bilsin ki, danışıqlar prosesində irəliləyişə nail olmaq məqsədilə yol tapmaq üçün buraya gəlmişəm. Mənim ATƏT-in fəaliyyətdə olan sədri kimi yanaşmam çox aydındır. Biz əminik ki, sülhə doğru addım-addım irəliləməliyik».

İyunun 2-də Azərbaycan Prezidenti İlham Əliyevin adından İsveçrə Prezidenti Didye Burkhalterin şərəfinə rəsmi nahar verilmişdir.

Prezident İlham Əliyev İsveçrə Prezidenti Didye Burkhalteri ölkəmizdə bir daha salamlamış, səfər zamanı ikitərəfli münasibətlərə dair bir çox vacib məsələlərin müzakirə edildiyini vurğulamışdır. İsveçrənin ATƏT-ə sədrliyinin uğurlu olacağına, onun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar prosesində fəal iştirak edəcəyinə əminliyini ifadə etmişdir: «Bizim ikitərəfli əlaqələrimizin inkişafı məmnunluq doğurur. Qısa müddətdə aramızda fəal ünsiyyət qurulub».

Prezident İlham Əliyev ölkələrimiz arasında investisiya və biznes əlaqələrinin inkişaf etdiyini, bu sahədə birgə iqtisadi komissiyanın mühüm rol oynadığını diqqətə çatdırmışdır. Dövlətimizin başçısı siyasi əlaqələrimizin, birgə məsləhətləşmələrin əhəmiyyətinə toxunaraq bütün bunların münasibətlərimizin təməlini təşkil etdiyini bildirmişdir.

2 Vergilər naziri Göyçayda vətəndaşları qəbul etmişdir
3 «Vergilər uşaqların gözü ilə» ənənəvi rəsm və inşa müsabiqəsinə yekun vurulmuşdur
4 Maarifləndirmə vergilərin könüllü ödənilməsinə müsbət təsir göstərir
5 Sahibkarların hüquqlarının qorunması naminə...

# Vergilər naziri Göyçayda vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər. Növbəti belə qəbul may ayının 30-da vergilər naziri Fazil Məmmədov tərəfindən Göyçay şəhərindəki 9 saylı Ərazi Vergilər İdarəsində Göyçay, Ağdaş, Ucar və Kürdəmir rayonlarından olan vətəndaşlar üçün keçirilmişdir. Vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi, vergi orqanlarına işə qəbul və digər məsələlərlə bağlı 40-dan çox vətəndaş vergilər nazirinə müraciət etmişdir.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir.

Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildirmişlər.

# «Azərbaycan: İtaliya üçün qızıl imkan»

***İtaliyanın «L'ultima ribattuta» saytında «Azərbaycan: İtaliya üçün qızıl imkan» sərlövhəli məqalə yerləşdirilmişdir.***

Məqalədə qeyd edilir ki, Xəzərin sahilində yerləşən və 20 ildən artıqdır müstəqil olan Azərbaycan hazırda çox güclü inkişaf dövrünü yaşayır. Hələ keçmiş əsrlərdən enerji resursları ilə zəngin Bakının vaxtı ilə Sovet İttifaqında ən önəmli neft istehsalçısı olduğunu yazan müəllif vurğulayır ki, İkinci Dünya müharibəsində qazanılan qələbədə bu şəhərin böyük rolu olmuşdur.




Yazıda Azərbaycanın təbii qazını Avropaya nəql edəcək Trans-Adriatik (TAP) boru kəməri layihəsi barədə də məlumat verilir. Azərbaycanın İtaliyadakı səfiri Vaqif Sadıqovun sözlərinə istinadla qeyd olunur ki, bu layihənin reallaşması nəticəsində minlərlə yeni iş yeri açılacaq, Avropa və Asiya arasında körpü olan Azərbaycan ilə beynəlxalq tərəfdaşlıq gücləndəcəkdir.

Müəllif oxucuların diqqətinə çatdırır ki, Azərbaycanda enerji ilə yanaşı, sənaye, manufaktura, kənd təsərrüfatı, idman, tikinti, mədəniyyət və digər sahələr də inkişaf etməkdədir. Bu gün qızıl dövrünü yaşayan Azərbaycanın geosiyasi əhəmiyyəti gündən-günə artmaqdadır.

İtaliya üçün Azərbaycan ilə əlaqələrin möhkəmləndirilməsinin vacibliyinin xüsusi vurğulandığı yazıda İtaliya-Azərbaycan Ticarət İnstitutunun prezidenti Manuela Traldinin fikirlərinə istinadla bildirilir ki, ölkələrimizi birləşdirən oxşar cəhətlər və birgə işlər həyata keçirmək üçün yaxşı imkan vardır.

## AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİNİN TƏDRİS MƏRKƏZİ

Aşağıdakı seçkili vəzifələri tutmaq üçün

**MÜSABİQƏ ELAN EDİR**

***İqtisadiyyat və menecment kafedrası üzrə:***

| | |
|---|---|
| Kafedra müdiri | - 1 yer |
| Dosent | - 1 yer |
| Baş müəllim | - 1 yer |
| Müəllim | - 1 yer |

***Vergi metodologiyası kafedrası üzrə:***

| | |
|---|---|
| Kafedra müdiri | - 1 yer |
| Dosent | - 1 yer |
| Baş müəllim | - 1 yer |
| Müəllim | - 1 yer |

***Vergi qanunvericiliyi və təsərrüfat hüququ kafedrası üzrə:***

| | |
|---|---|
| Kafedra müdiri | - 1 yer |
| Dosent | - 1 yer |
| Baş müəllim | - 1 yer |
| Müəllim | - 1 yer |

***Elmi-tədqiqat bölməsi üzrə:***

| | |
|---|---|
| Bölmə rəisi | - 1 yer |
| Baş elmi işçi | - 1 yer |
| Elmi işçi | - 1 yer |

Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına uyğun elm sahəsində nailiyyətlərə, lazımi elmi-pedaqoji təcrübəyə, vergi xidməti və digər icra orqanlarında, həmçinin müxtəlif sahələrdə müəyyən iş təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə, müvafiq elmi ad və dərəcələrə malik şəxslər iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxs Tədris Mərkəzinin rəisinin adına ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

- kadrların şəxsi qeydiyyat vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin surəti;
- dərc olunmuş elmi əsərlərin təsdiq edilmiş siyahısı (zərurət yarandığı halda elmi əsərlərin orijinalları).

Mərkəzin işçiləri müsabiqədə iştirak etdikdə yalnız Mərkəzin rəisinin adına ərizə və elmi əsərlərin təsdiq edilmiş siyahısı təqdim edilir.

Sənədlər Tədris Mərkəzinə təqdim edilməlidir.

Tədris Mərkəzinin ünvanı: Şamaxı rayonunun Nağaraxana kəndi.

***Əlaqələndirici şəxs:***

Mərkəzin təhsil işləri üzrə rəis müavini **İlqar Seyfullayev. Tel.:** 403-88-59, 403-88-67

# Qanunu pozanlara qarşı ciddi tədbirlər görülür

*May ayının 22-də 4 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən Şamaxı şəhərində fiziki şəxs Rəşad Soltan oğlu Osmanova məxsus mağazada əmlakın siyahıya alınması tədbiri keçirilmişdir.*

Vergi ödəyicisinin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən onun 2 min 901 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, əmlakın siyahıya alınması haqqında qərar çıxarılmış və vergi ödəyicisinin 3 min 871 manatlıq əmlakı, o cümlədən mülkiyyətində olan VAZ 21043 markalı avtomobili qanun çərçivəsində siyahıya alınmışdır.

Şamaxı şəhərində fiziki şəxs Eldar Rəfayıl oğlu İsmayılova və Rəfayıl Alıgül oğlu Binyətova məxsus mağazalarda da əmlakın siyahıya alınması tədbiri keçirilmişdir. Tədbir zamanı vergi borcları müqabilində müvafiq olaraq 1484 və 1320 manatlıq ərzaq məhsulları və təsərrüfat malları siyahıya alınmışdır.

May ayının 26-da 5 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən Şirvan şəhəri, Cənub Sənaye Qovşağı ərazisində yerləşən «Şirvan Sənaye Kombinatı-2 ASC»yə məxsus əmlak siyahıya alınmışdır. Vergi ödəyicisinin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən onun 47 min 205 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, bu barədə vergi ödəyicisinə bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Borcun ödənilməsini təmin etmək üsulu kimi müəssisədəki 26 min 500 manatlıq müxtəlif növ xammal və avadanlıq siyahıya alınmışdır.

Həmin gün Salyan rayonu Kərimbəyli kəndində fiziki şəxs Elşad Allahverdi oğlu Məmmədova məxsus ərzaq mağazasında və Təzəkənd kəndində fiziki şəxs Arif Seyfulla oğlu Əhmədova məxsus «Asif» şadlıq sarayında da vergidən yayınmaya görə müvafiq olaraq 1032 manatlıq ərzaq məhsulları, 1700 manat dəyərində mebel və texniki avadanlıq siyahıya alınmışdır.

# Vergi orqanlarında işə qəbul üzrə test imtahanları keçirilmişdir

İyunun 3-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası vergi orqanlarına işə qəbul olunmaq istəyən namizədlər üçün test imtahanı keçirmişdir. İmtahanda iştirak etmək üçün elektron ərizə ilə müraciət edən 2303 nəfərin 1931-nin sənədləri qəbul olunmuş, imtahanda 1390 nəfər iştirak etmişdir.

Test imtahanında uğur qazanmış 76 nəfər növbəti mərhələdə müsabiqə komissiyası tərəfindən müsahibədən keçməlidirlər. Bu mərhələdən də uğurla keçən namizədlər vergi orqanlarında işlə təmin olunmaq imkanı əldə edəcəklər.

Müsahibənin dəqiq vaxtı və nəticələri barədə Vergilər Nazirliyinin rəsmi internet saytında (www.taxes.gov.az) və kütləvi informasiya vasitələrində məlumat veriləcəkdir.

Qeyd edək ki, dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına xidmət haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin «Sənədlərin toplanması, yoxlanılması və müsabiqənin keçirilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.



# «Elektron hökumət» portalında ən çox istifadə olunan xidmətlər

*Elektron hökumət» («www.e-gov.az») portalının istifadəyə verilməsinin əsas məqsədi vətəndaş və dövlət qurumları arasında münasibətləri rahatlaşdırmaqdır.*

Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliliyinin artırılması və təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi, elektron xidmətlər vasitəsilə istifadəçilərə təqdim olunan məlumatların həqiqiliyinin və sərbəst əldə olunmasının təmin edilməsi baxımından «Elektron hökumət» portalına tələbat getdikcə artır. Beynəlxalq təcrübə əsasında tərtib edilən bu portal vasitəsilə istifadəçinin sorğusu üzrə məlumatların axtarılması və əldə edilməsinə sərf olunan vaxt maksimum azaldılıb və istifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq, ölkənin bütün ərazisində təqdim olunan elektron xidmətlərdən istifadə mümkündür.




Hazırda Nazirlər Kabinetinin təsdiq etdiyi elektron xidmətlərdən 253-nün istifadə olunduğu portaldakı xidmətlərin reytinqi, istifadəçilərin sayı barədə məlumatlar müntəzəm qaydada ictimaiyyətə çatdırılır. «www.e-gov.az» portalı tərəfindən təqdim edilən və vətəndaşların ən çox istifadə etdiyi e-xidmətlərə dair aprel ayı üzrə göstəricilər açıqlanıb. Ay ərzində daha çox:

- ♦ VÖEN-ə görə ödəyicinin axtarılması (Vergilər Nazirliyi);
- ♦ yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar (Daxili İşlər Nazirliyi);
- ♦ diplom haqqında məlumatlar (Təhsil Nazirliyi);
- ♦ daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı və ya ləğvi üçün müraciətin və sənədlərin qəbulu (Əmlak Məsələləri Dövlət Komitəsi);
- ♦ telefon nömrəsi üzrə axtarış;
- ♦ vətəndaşın fərdi məlumatları barədə arayış;
- ♦ mobil cihazların qeydiyyatdan keçirilməsi;
- ♦ ay ərzində aparılmış şəhərlərarası və beynəlxalq danışıqlar üzrə məlumat;
- ♦ portal üzərindən verilmiş arayışların yoxlanılması (Rabitə və Yüksək Texnologiyalar Nazirliyi);
- ♦ sığortaolunanın onlayn uçota alınması;
- ♦ sığortaedənin uçot nömrəsinin öyrənilməsi;
- ♦ sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı;
- ♦ pensiya kalkulyatoru (Dövlət Sosial Müdafiə Fondu).

Azərbaycan adları barədə məlumatın verilməsi xidmətləri (Ədliyyə Nazirliyi) daha çox istifadə edilən xidmətlər arasında olmuşdur.

Statistikaya əsasən, 2012-ci ilin dekabrından 2014-cü ilin aprel ayının sonuna qədər portala ümumilikdə 623078 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 341776 olub.

Aprel ayının ilk ongünlüyündə «www.e-gov.az» portalının təqdim etdiyi elektron xidmətlərə olan müraciətlərin sayı 1 milyona çatıb.

Portaldan istifadə etmək üçün istifadəçilər e-imza kartı ilə, «Asan imza», «Elektron hökumət» portalı tərəfindən verilən kod və mobil autentifikasiya sertifikatı ilə daxil olurlar.

**AYTƏN**

# Vergilər Nazirliyi elektron xidmətlər sahəsində heç bir Avropa ölkəsindən geridə qalmır

*Xəbər verdiyimiz kimi, mayın 26-dan 28-dək Bakıda Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) İcraiyyə Şurasının iclası keçirilmişdir. Təşkilatın İcraiyyə Şurasının katibi Mikcos Kok qəzetimizə müsahibəsində iclasın yekunları və təşkilatın perspektiv fəaliyyət istiqamətləri barədə təəssüratlarını bölüşmüşdür.*

***- Cənab Mikcos Kok, IOTA-nın İcraiyyə Şurasının 92-ci iclasında müzakirə olunmuş məsələləri qısaca xülasə etsək, hansı mənzərənin şahidi olarıq?***

- İlk növbədə, Bakıya səfərimdən və bu tədbirdə iştirakımdan razılığımı bildirmək istərdim. İnkişaf edən şəhərinizdə olmaq və buradakı qonaqpərvərliyi görmək mənim üçün çox xoşdur. Belə bir yüksək səviyyəli toplantının təşkilinə görə Azərbaycanın Vergilər Nazirliyinin rəhbərliyinə təşəkkürümü bildirirəm. İclasda, əsasən, təşkilatın gələcək iş planları ilə bağlı bir sıra təşkilati və texniki məsələlər müzakirəyə çıxarıldı.

IOTA-nın İcraiyyə Komitəsinin Bakıda keçirilən 92-ci iclasının yekunlarını müsbət qiymətləndirirəm. İki gün davam edən iclasda IOTA-nın informasiya platforması hazırlandı, habelə 2013-cü ilin yekunları üzrə təşkilatın texniki və maliyyə hesabatları dinləndi. 2015-ci il üçün maliyyə büdcəsi, habelə qurumun qarşısında duran bir sıra digər aktual məsələlər müzakirə edildi.

IOTA fəaliyyətdə olduğu 18 il müddətində Avropa ölkələrinin vergi administrasiyaları arasında səmərəli platforma rolunu oynadığını təsdiqləyib. Hazırda təşkilatın 46 üzvü var və üzv ölkələr arasında əməkdaşlığın genişləndirilməsi əsas fəaliyyət istiqamətlərimizdəndir. Vergi inzibatçılığının müasir metodlarla həyata keçirilməsi, mütərəqqi yeniliklərin öyrənilməsi, təcrübə mübadiləsi baxımından üzv dövlətlərin vergi administrasiyalarının müntəzəm şəkildə məsləhətləşmələrinə ehtiyac duyulur. IOTA-nın əsas məqsədi Avropa qitəsində yerləşən üzv ölkələrin vergi administrasiyalarının iştirakı ilə səmərəli dialoq mühiti yaratmaqdır. Təşkilat bu məqsədlə il ərzində 20-dən çox tədbir - seminar və konfranslar təşkil edir. Bu, müxtəlif ölkələrin vergi administrasiyaları arasında təcrübə mübadiləsinə, səmərəli diskussiyalara imkan yaradır.

***- İcraiyyə Şurasında növbəti Baş Assambleyaya hazırlıq istiqamətində aparılan müzakirələr barədə nə deyə bilərsiniz?***

- IOTA-nın Baş Assambleyasının iclasının qarşıdakı aylarda keçirilməsi nəzərdə tutulur. Bir qayda olaraq, həmin iclasda iki mühüm istiqamət üzrə müzakirələr aparılır. Birinci istiqamət üzrə yüksək vəzifəli şəxslərin iştirakı ilə texniki məsələlər müzakirə edilir. Bu ilin texniki mövzusu vergi ödəyicilərinə göstərilən xidmətlərin monitorinqi olacaq. Daha dəqiqi, vergi ödəyicilərinə xidmətlərin daha da təkmilləşdirilməsi, bu sahəyə innovativ yeniliklərin tətbiqi məsələləri müzakirə ediləcək. Vergi ödəyicilərinin öhdəliklərə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi məsələsi də diqqət mərkəzində olacaq.

İkinci əsas müzakirə mövzusu təşkilati məsələlərlə bağlı olacaq. Baş Assambleyada bu ilin iş planı, habelə təşkilatın gələn il üçün dövlət büdcəsi müzakirə olunaraq təsdiqlənəcəkdir. 2015-ci il üçün fəaliyyət prioritetlərimizi də müəyyənləşdirməliyik. Bundan əlavə, üzv ölkələrin vergi administrasiyaları arasında münasibətləri daha da təkmilləşdirmək məqsədilə müəyyən təkliflər nəzərdən keçiriləcək.

***- 2014 ildə IOTA-nın əsas fəaliyyət prioritetləri nədən ibarətdir?***

- IOTA məşvərətçi qurumdur və üzv ölkələrə preventiv xarakterli hansısa təkliflər, tövsiyələr vermir. Biz, sadəcə, vergitutma sahəsində dünyada mövcud olan tendensiyaları, yenilikləri, həllini gözləyən problemləri müzakirə edir, optimal həll yollarını tapmağa çalışırıq. Bu məsələlərlə bağlı üzv ölkələrin səsləndirdikləri təklif və tövsiyələri nəzərə almağa çalışırıq.

Bu il üçün prioritet məsələlərdən biri rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsidir. Digər bir vacib məsələ isə vergi borclarının idarə olunmasıdır. Bundan başqa, risklərin qiymətləndirilməsi və idarə olunması, risk menecmentinin inkişafı məsələləri də diqqət mərkəzində olacaq.

***- Söhbət zamanı vergi öhdəliklərinə könüllü əməletmə səviyyəsinin yüksəldilməsi vacibliyini qeyd etdiyiniz. Bunun üçün IOTA hansı mexanizmlərdən istifadəni məqbul sayır?***

- Bu suala konkret cavab vermək çətindir. IOTA-ya üzv Avropa ölkələrinin hər birində bu məqsədlə fərqli mexanizmlərdən istifadə olunur. Bu, vergi inzibatçılığının müasir tələblər səviyyəsində qurulması, elektron xidmətlərin geniş tətbiqi, vergi mədəniyyətinin yüksəldilməsi, vergi dərəcələrinin optimal səviyyədə olması kimi mühüm reallıqlarla şərtlənir. Avropa ölkələrində bu məqsədlə həyata keçirilən mühüm tədbirlərdən biri də vergi ödəyicilərinə xidmətin yüksək səviyyədə qurulmasıdır. Ümumilikdə, demək olar ki, qlobal böhranın tədricən aradan qalxdığı bir şəraitdə vergi ödəyicilərinin öhdəliklərə əməletmə səviyyəsi yüksəlməkdədir.

***- Azərbaycan ilə IOTA arasında münasibətlərin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?***

- Qeyd etdiyim kimi, əsas məqsədimiz mütərəqqi təcrübələri bölüşmək üçün müxtəlif forumlar təşkil etməkdir. Azərbaycan da uzun müddət IOTA-ya ölkə kimi bu işlərin təşkilində bizə yaxından kömək edir. Ötən illərdə Azərbaycanın Vergilər Nazirliyinin mütərəqqi yeniliklərə açıq qurum olduğunu müşahidə etmişik. Nazirliyin əməkdaşları vergi inzibatçılığının təkmilləşdirilməsinə xidmət edən yenilikləri daha yaxşı mənimsəyir və tətbiqinə böyük maraq göstərirlər.

Azərbaycanda tətbiq olunan innovativ yeniliklər, əsasən, vergi ödəyicilərinə xidmətlərin təkmilləşdirilməsinə və onların öhdəliklərə könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə şərait yaradır. Uşaq və yeniyetmələrin, ümumilikdə hər bir vətəndaşın vergilər sahəsində maarifləndirilməsi üzrə həyata keçirilən layihələr də orijinallığı ilə diqqət çəkir. Cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılmasına xidmət edən addımlar sistemli şəkildə reallaşdırılır. Bu mənada digər ölkələr də Azərbaycanın təcrübəsini öyrənməlidirlər.

IOTA-nın bir sıra iclaslarının Bakı şəhərində keçirilməsi də məhz bu reallıqlarla şərtlənir.

***- İcraiyyə Şurasında Azərbaycanın vergi sisteminin təkmilləşdirilməsi, vergi inzibatçılığının müasirləşdirilməsi, yeni texnologiyaların tətbiqi məsələləri barədə geniş məlumat verildi. IOTA bu islahatları necə dəyərləndirir?***

- Azərbaycanda müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə yüksək səviyyədədir. İclas zamanı bəyannamələrin elektron formada təqdim edilməsi barədə məlumatlar da verildi. Hesab edirəm ki, Vergilər Nazirliyi hazırda elektron xidmətlər sahəsində heç bir Avropa ölkəsindən geri qalmır. Burada əsas məsələlərdən biri vergi ödəyicilərinin müasir xidmətlərdən istifadə bacarıqlarının inkişaf etdirilməsidir.

Son illər Azərbaycan biznesə başlama sahəsində ciddi uğurlar əldə edib. Fiziki və hüquqi şəxslərin qeydiyyatı mexanizmlərinin sadələşdirilməsi sahəsində uğurlar müxtəlif beynəlxalq təşkilatların, o cümlədən Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının hesabatlarında qeyd olunur. Azərbaycanın biznesə başlama sahəsində dünyada ilk onluqda yer alması diqqətəlayiq faktdır. Bu həm də biznes mühitinin təkmilləşdirilməsi sahəsində Azərbaycanın uğurlu islahatlar həyata keçirdiyinin əyani göstəricisidir.

**Samir MUSTAFAYEV**

# «Vergilər uşaqların gözü ilə» ənənəvi rəsm və inşa müsabiqəsinə yekun vurulmuşdur

*May ayının 30-da Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Vergilər Nazirliyinin və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının təşkilatçılığı ilə «Vergilər uşaqların gözü ilə» adlı rəsm və inşa müsabiqəsinə yekun vurulmuşdur. Bu deviz altında keçirilən rəsm müsabiqəsində 5-8, 9-12 və 13-17 yaş kateqoriyalarını təmsil edən məktəblilər iştirak etmişlər, inşa müsabiqəsi isə yaş kateqoriyası nəzərə alınmadan keçirilmişdir.*



Müsabiqənin yekunlarına həsr olunmuş tədbiri Uşaq-Gənclər Yaradıcılıq Sarayının direktoru Bədayə Ramazanova açmışdır. Qeyd etmişdir ki, müsabiqəyə təqdim olunmuş əsərlərdə formalaşan kiçik təsəvvürlər gələcək üçün böyük təməldir və bu, gənc nəslə vergi biliklərinin aşılanmasına xidmət edir. Builki müsabiqə 2014-cü ilin aprel ayından start götürmüş, münsiflər heyəti tərəfindən 250-dən çox rəsm və inşa dəyərləndirilərək qaliblər müəyyən olunmuşdur.

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov qeyd etmişdir ki, gənc nəslin nümayəndələri arasında vergi mədəniyyətinin aşılanması, cəmiyyətdə vergilərin könüllü ödənilməsi prinsiplərinin təbliğ olunması Vergilər Nazirliyinin vergi ödəyicilərinə xidmət sahəsində gördüyü işlərin mühüm hissəsidir. Nazirliyin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədov bildirmişdir ki, tədbirin keçirilməsində əsas məqsəd vergilər haqqında anlayış və bilikləri uşaqların başa düşəcəyi anlayışlar vasitəsilə gələcəyin vergi ödəyiciləri olan gənclərə çatdırmaqdır.

Hər il müsabiqəyə təqdim edilən rəsm əsərləri albom şəklində nəşr olunaraq Vergilər Nazirliyinin qatıldığı sərgilərdə, eləcə də digər tədbirlərdə nümayiş etdirilir. Mükafata layiq görülmüş rəsm əsərlərinin





çoxu hazırda Vergilər Nazirliyinin inzibati binasının divarlarını bəzəyir və builki müsabiqədə iştirak edən əsərlərin ən yaxşılarından da bu məqsədlə istifadə ediləcək.

Tədbirdə rəsm və inşa üzrə builki müsabiqənin qalibləri elan edilmiş, onlara diplom və hədiyyələr təqdim olunmuşdur. Rəsm müsabiqəsində 5-8 yaş qrupu üzrə Ruslana Əzimova 1-ci, Aysel Atayeva 2-ci, Zöhrə Quliyeva 3-cü yerə, 9-12 yaş qrupu üzrə İbrahim Bağırov 1-ci, Nəzrin İsgəndərli 2-ci, Nurlana Hüseynova 3-cü yerə, 13-18 yaş qrupu üzrə Dünya Sadıqlı 1-ci, Məryəm Sultanova 2-ci, Murad Şirinov 3-cü yerə layiq görülmüşlər. İnşa müsabiqəsində Ləman Səmədzadə 1-ci, Elçin Cəfərli 2-ci, Pərvanə Cəlallı 3-cü yeri tutmuşdur.

# «ASAN xidmət»dən yeniliklər

*Ölkə başçısının fərmanına əsasən, Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində «ASAN xidmət» mərkəzlərinin yaradılması vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalmasına, dövlət strukturlarına etimadın daha da gücləndirilməsinə, şəffaflığın artırılmasına, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə, elektron xidmətlərdən daha geniş istifadə olunmasına istiqamətlənib.*

Bu gün respublikamızda 6 «ASAN xidmət» mərkəzi fəaliyyət göstərir: 4-ü Bakı, digərləri isə Sumqayıt və Gəncə şəhərlərində.

Vətəndaşların «ASAN xidmət» mərkəzlərindən istifadəsinin daha da asanlaşdırılması məqsədilə www.asan.gov.az internet ünvanında onlayn bölmələr təklif olunur. «Onlayn növbə» bölməsi vasitəsilə xidmət mərkəzlərinə getmədən növbəyə yazılmaq mümkündür.

«Onlayn əlaqə» bölməsi vasitəsilə isə hər bir vətəndaş onu maraqlandıran sualların cavabını onlayn formada ala bilər. «Onlayn əlaqə» xidməti həftənin beş günü saat 10-dan 19-a dək fəaliyyət göstərir.

Bu günlərdə «ASAN xidmət» mərkəzlərinin www.asan.gov.az internet səhifəsində daha bir yenilik tətbiq edilib: mərkəzlərin növbə göstəricilərini elektron formada əks etdirən funksional bölmə yaradılıb. «Növbə göstəriciləri» funksional bölməsində «ASAN xidmət» mərkəzləri üzrə gün ərzində müvafiq müddət çərçivəsində xidmət göstərilən və növbədə gözləyən şəxslərin sayı, həmçinin xidmət üzrə orta gözləmə vaxtı da əks olunur. Bundan başqa, istifadəçilər növbəyə durmuş və xidmət göstərilməsi üçün nəzərdə tutulmuş növbəti müraciətlərin sayını da izləmək imkanı əldə edirlər. Bunun üçün www.asan.gov.az internet səhifəsinin istifadəçiləri «Növbə göstəriciləri» funksional bölməsindəki «ASAN xidmət» mərkəzləri hissəsini seçməlidirlər.

Daha bir yenilik isə SMS məlumatlandırma xidmətinin istifadəyə verilməsidir. SMS məlumatlandırma «ASAN xidmət» mərkəzlərində müvafiq xidmətlər üzrə növbə götürmüş vətəndaşların öz növbə müddətinin yaxınlaşması barədə məlumatlandırılmasına imkan yaradır. Mərkəzlərdə müvafiq xidmətlər üzrə növbə götürülən zaman istifadəçi şəxs mobil nömrənin yazılması qeyd olunan xananı doldurmaqla SMS məlumatlandırma funksiyasından yararlana bilir. Mobil nömrə qeyd edildikdən sonra həmin şəxs öz növbəsinin çatmasına 5 və daha çox növbə sayı üçün xəbərdarlıq edilməsi ilə bağlı sorğunu cavablandırmalı və növbə biletini çap etdirməlidir. Bundan sonra öz növbə müddətinin çatmasına müvafiq olaraq seçdiyi növbə sayına barədə mobil telefonuna gələn SMS vasitəsi ilə məlumatlandırılacaqdır.

Bununla, SMS məlumatlandırma vasitəsi ilə «ASAN xidmət»dən faydalanmaq istəyən şəxslər zamanlarının daha da səmərəliliyini təmin etmiş olurlar.

**AYTƏN**




MƏLUMAT



Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# İkinci iş yerindən əməkhaqqı

***Əsas iş yerimdən əlavə ikinci iş yerimdən aldığım əməkhaqqı 240 manatdır. Belə olduqda həmin məbləğdən gəlir vergisi tutularkən hansı güzəştlər tətbiq edilir?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra - Məcəllə) 98.1-ci maddəsinə əsasən, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir.

Məcəllənin 101.1-ci maddəsində qeyd olunub ki, muzdla işləyən fiziki şəxslərin aylıq gəlirinin (o cümlədən əməkhaqqının) 2500 manatadək olan hissəsindən 14%, 2500 manatdan çox olduqda isə 350 manat + 2500 manatdan çox olan məbləğin 25% dərəcəsi ilə vergi tutulur.

102.1.6-cı maddəyə əsasən, fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 250 manatadək olduqda, əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 3000 manatadək olduqda, əmək qabiliyyətli əhali üçün ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azaddır (Ölkəmizdə 2014-cü il üçün yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 136 manat müəyyən edilmişdir).

Məcəllənin 102.8-ci maddəsinə əsasən, əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin bu maddədə sadalanan vergi güzəştləri hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində həyata keçirilir. Qeyd olunan maddədə nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

Göründüyü kimi, Məcəllənin 102.1.6-cı maddəsi ilə müəyyən edilmiş güzəşt yalnız əsas iş yerində (əmək kitabçanızın olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəlir 250 manatadək olduqda tətbiq edilməlidir. İkinci (əsas iş yeri sayılmayan) iş yerindən işlə əlaqədar əldə edilən aylıq gəlirin tam məbləğindən Məcəllənin 101.1-ci maddəsi ilə müəyyən edilmiş dərəcələrlə gəlir vergisi tutulur.

# Maarifləndirmə vergilərin könüllü ödənilməsinə müsbət təsir göstərir

*Vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində aparılan məqsədyönlü işlər vergilərin məcburi ödənişdən daha çox könüllü əməletmə səviyyəsinin artırılmasına istiqamətlənmişdir. Azərbaycanda vergi ödənişində könüllü əməletmə səviyyəsi 2011-ci ildəki 67%-dən 2012-ci ildə 68,3%-ə yüksəlmiş, 2013-cü ildə isə 70% civarında olmuşdur.*

«Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin İnkişaf Konsepsiyası (2011-2015)» adlı sənəddə əsas hədəf kimi vergilərin məcburi yığımdan tədricən könüllü ödəməyə keçid prosesinin sürətləndirilməsi nəzərdə tutulmuşdur. Konsepsiyanın həyata keçirilməsi nəticəsində könüllü əməletmə səviyyəsinin 2015-ci ildə 82-85%-ə çatdırılacağı gözlənilir.

Mütəxəssislərin fikrincə, vergi partnyorluğu sazişlərinin bağlanması könüllü əməletmə səviyyəsinin daha da yüksəldilməsi istiqamətində səmərəli alət olacaq.

Vergi ödəyiciləri arasında vergi qanunvericiliyi ilə bağlı biliklərin artırılması, vergi mədəniyyətinin ümumi səviyyəsinin qaldırılması, vergi orqanları ilə biznes strukturları arasında qarşılıqlı əlaqənin genişləndirilməsi, ödəyicilərin istənilən vaxt istənilən yerdən istənilən məlumatı ala bilmələri imkanlarının yaradılması vergilərin könüllü ödənilməsini stimullaşdırır. Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi, www.taxes.gov.az internet saytı, vergi orqanlarının vergi ödəyicilərinə xidmət strukturları, vergi ödəyicilərinə xidmət mərkəzləri və «Vergi dostları» şəbəkəsinin yaradılması bu istiqamətdə həyata kecirilən mühüm tədbirlərdəndir. Vergilər Nazirliyinin rəsmi internet səhifəsi Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Burada qanunvericilik aktları, sual-cavab, e-xidmətlər, bəyannamə formaları və onların doldurulma qaydaları, vergilər naziri ilə birbaşa əlaqə, vergi təqvimi, vergi daxilolmalarının statistikası, vergi orqanlarının interaktiv xəritəsi, video-bələdçi, vergilərlə bağlı testlər və digər bölmələr yerləşdirilmişdir ki, bütün bu imkanlar vergi ödəyicilərinin işinin asanlaşdırılmasına xidmət edir. Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı «Facebook», «Twitter», «Youtube» sosial şəbəkələrində geniş materialların yerləşdirilməsi də istifadəçilərdə böyük maraq oyadır.

Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərində vergi mədəniyyətinin formalaşdırılması və yüksəldilməsi istiqamətində görülən işlərə vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin genişləndirilməsini, o cümlədən bəyannamələrin tərtib və təqdim olunması, vergilərin ödənilməsi ilə bağlı prosedurların elektron qaydada həyata keçirilməsini, vergi ödəyicilərinin vergi qanunvericiliyi barədə daimi olaraq internet, KİV vasitəsilə məlumatlandırılmasını, habelə vergilərlə bağlı metodiki materialların, broşürlərin çap etdirilib vergi ödəyicilərinə çatdırılmasını, müxtəlif tematik seminarların və görüşlərin keçirilməsini göstərmək olar.

Vergi intizamlılığı ikitərəfli anlayışdır: həm vergi ödəyicisinə, həm də vergi oraqanına şamil edilir. Vergi intizamlılığının təmin edilməsi mütəmadi qaydada vergilərlə bağlı təlimlərin təşkil olunmasını, büdcə ilə hesablaşmaların aparılmasında vergi ödəyicilərinin mənəvi hazırlığının və maliyyə qabiliyyətliliyinin inkişaf etdirilməsini, vergi orqanları ilə vergi ödəyiciləri arasındakı qarşılıqlı əlaqələrin ahəngdar şəkildə qurulmasını tələb edir. Vergi orqanlarının fəaliyyətində intizamlılığın təmin olunmasının vergi ödəyicilərinin fəaliyyətinə böyük təsiri vardır. Əks halda, vergi orqanlarının vergi ödəyicilərinə qarşı əsassız tələblər irəli sürməsi onların vergi orqanları ilə münasibətlərinin gərginləşməsinə, vergilərin vaxtında və tam məbləğdə büdcəyə ödənilməsinə mənfi təsir göstərə bilər. Bu həm də lüzumsuz məhkəmə çəkişmələrinin yaranmasına və inzibati xərclərin çəkilməsinə gətirib çıxarır. Belə hallara yol verilməməsi üçün vergi mədəniyyətinin yüksəldilməsi və vergi intizamının gücləndirilməsi ilə əlaqədar tədbirlər görülərkən təkcə vergi ödəyicilərinin intizamlı olmağa çağırılması və qanunvericilik bazasının yaradılması ilə kifayətlənmək olmur. Buna görə də hər bir vergi müfəttişinin və bütövlükdə vergi orqanının işinin keyfiyyətinin artırılması daim diqqət mərkəzində saxlanılır.

Hazırda qabaqcıl dünya təcrübəsindən istifadə olunmaqla ölkəmizdə vergi mədəniyyətinin daha da yüksəldilməsinə yönəldilmiş tədbirlər davam etdirilməkdədir. Vergitutma mexanizminin sadələşdirilməsi, vergi mübahisələrinin həlli mexanizmlərinin təkmilləşdirilməsi, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq prinsipləri əsasında qurulması, vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi işlərinin müasir İKT-nin imkanlarından istifadə etməklə həyata keçirilməsi bu sahədə görülən işlərin prioritet istiqamətləri kimi müəyyən olunmuşdur.

**Rəşad SADIQOV**

# Beynəlxalq seminar

Macarıstanın paytaxtı Budapeşt şəhərində «Strateji planlaşdırma və dəyişikliklərin idarə edilməsi» mövzusunda keçirilmiş seminarda Azərbaycan da daxil olmaqla Macarıstan, Avstriya, Belçika, Bolqarıstan, Xorvatiya, Finlandiya, İrlandiya, İtaliya, Qazaxıstan, Latviya, Litva, Malta, Moldova, Montenqro, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Serbiya, Slovakiya, İsveç, Böyük Britaniya və s. ölkələrdən ümumilikdə 40 nümayəndə iştirak etmişdir. Tədbirdə Portuqaliya, Litva, Slovakiya, Belçika, Norveç və İrlandiya nümayəndələri təqdimatlarla çıxış etmişlər.

Əsas məqsədi regional idarələrdə təşkilatın müəyyən etdiyi strategiya və məqsədlərin daha effektiv yerinə yetirilməsi üçün strateji planın və həmçinin dəyişiklərin idarə edilməsi vasitələrinin praktiki aspektləri barədə bilik və təcrübə mübadiləsindən ibarət olan seminarda Azərbaycan Vergilər Nazrilyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin xarici ölkələrin vergi sisteminin tədqiqi şöbəsinin əməkdaşı Aydın Xankişiyev iştirak etmişdir.

# Məlumatlandırmanın əlverişli ünvanı

22-24 may tarixlərində Bakı Ekspo Mərkəzində «World Food Azerbaijan-2014» XX Azərbaycan Beynəlxalq qida sənayesi və «Agrihort Azerbaijan-2014» VIII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı sərgiləri keçirilmişdir. Qeyd edək ki, «World Food Azerbaijan» sərgisi dünyada məşhur «WorldFood» sərgi brendinin bir hissəsidir və Rusiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Hindistan, Türkiyə və digər ölkələrin qida sənayesi üzrə ən iri sərgilərini özündə birləşdirir. Bu il sərgidə 36 ölkədən 242 şirkət və təşkilat iştirak edirdi.

Hər iki sərgidə Vergilər Nazirliyi öz pavilyonları ilə iştirak etmişdir. Nazirliyin vergi ödəyicilərinə xidmət strukturlarının əməkdaşları tərəfindən iştirakçıları maraqlandıran suallara cavab verilmiş, çoxlu sayda məlumat xarakterli materiallar və nəşrlər paylanmışdır.



# Stimullaşdırıcı kampaniyalarda iştirak edən bankların sayı artır

*Ölkədə nağdsız əməliyyatların həcminin artması məqsədilə banklar tərəfindən müxtəlif stimullaşdırıcı kampaniyaların təşkili daha da genişlənib. İlin əvvəlindən banklar yeni kart məhsullarının buraxılması və xidmətlərin hazırlanması işini sürətləndirib, vətəndaşları və ticarət şəbəkələrini kartlardan istifadəyə təşviq etmək üçün yeni layihələr həyata keçirməyə başlayıb. Bir çox güzəştləri nəzərdə tutan və il ərzində keçirilməsi planlaşdırılan kampaniyanın başlıca məqsədi vətəndaşları kartlar vasitəsilə daha çox ticarət əməliyyatları aparmağa həvəsləndirməkdir.*

«Dəyərli dostlara dəyərli hədiyyə», «Nağdsız ödə, nağd qazan», «Uduşlu pul köçürmələri», «Bonus», «Kartla ödə, «Apple» qazan!», «Ödəmələr hədiyyəli, hər ay qazan bir 50-i!», «AccessQazanc», «Freewill», «Al, poz, qazan» , «Sevimlilərə sürpriz», «Komissiyasız günlər», «Həzz kart», «Əmanət sizdən - hədiyyələr bizdən», «İki dəfə çox bonus», «Qoşul, fərqlən, faydalan», «Heyrətləndirici dünya!», «Kreditinizi ödəyin və qazanın» və digər kampaniyalar çərçivəsində hər rüb müştərilərə uduş kimi noutbuk, planşet və mobil telefonlar hədiyyə olunur ki, bu da növbəti kartlar əldə etməyə marağı artırır.

Son aylarda banklar stimullaşdırıcı lotereyalar («Albalı kartınızla alış-veriş edin və qazanın», «Dəyərli dostlara dəyərli hədiyyə», «Visa ilə al, Braziliyaya gəl!» və s.) təşkil etməklə daha çox müştəri cəlb etməyə nail olurlar. Bu cür lotereya oyunlarında kart sahibləri 100 manatdan 1000 manatadək pul və qiymətli hədiyyələr əldə edirlər. Hətta bəzi layihələrdə qalib şəxslərin xarici ölkələrə turist səfərləri təşkil olunur. Məsələn, «Kapital Bank»ın «Visa ilə al, Braziliyaya gəl!» devizi altında keçirdiyi lotereya oyununda 2 əsas qalib Braziliyaya - 2014-cü il futbol üzrə dünya çempionatına 2 nəfərlik səyahət paketi qazanıb, digər 168 qalibə isə müxtəlif hədiyyələr verilib. Minlərlə şəxsin qoşulduğunu nəzərə alsaq, bu aksiyanın müştərilərin nağdsız ödənişlərə həvəsləndirilməsində böyük uğur olduğunu qeyd etmək olar. Eləcə də «DəmirBank»ın «VISA» plastik kart sahiblərinə Braziliyada keçiriləcək futbol üzrə dünya çempionatına iki nəfərlik bilet əldə etmək şansı verən aksiyası POS-terminallar və internet vasitəsi ilə nağdsız ödənişlər edən müştərilərə ünvanlanıb.



«AtaBank» ASC-nin keçirdiyi «Al, poz, qazan» kampaniyası da müştərilərin nağdsız əməliyyatlara marağının artmasında mühüm rol oynayır. Müxtəlif məbləğdə pul mükafatı əldə etməyə imkan verən bu aksiyada indiyədək minlərlə müştəri iştirak edib. Bununla yanaşı, «Dəyərli dostlara dəyərli hədiyyə», «BillPay sistemi ilə onlayn ödəniş» lotereyalarının da iştirakçılarının sayı kifayət qədər böyük olub.

Ümumiyyətlə, son aylarda stimullaşdırıcı kampaniyaların, lotereya oyunlarının, müxtəlif uduşlu aksiyaların və digər layihələrin sayının artması bankların nağdsız ödənişlər bazarının canlanmasında aktivliyinin göstəricisi hesab edilir. Mərkəzi Bankın (MB) sədrinin müavini Alim Quliyevin sözlərinə görə, hökumət qurumları ilə birlikdə keçirilən müxtəlif tədbirlər 2014-cü ilin yanvar-aprel aylarında nağdsız əməliyyatlarda iştirak edən bankların sayının artmasına səbəb olub. Nağdsız bazarın təhlilinin nəticələri göstərir ki, ölkə miqyasında nağdsız hesablaşmaların həcminin artırılması, maliyyə vasitəçiliyində innovasiyaların tətbiqinin genişləndirilməsi məqsədilə bankların iştirakı ilə müxtəlif tədbirlərin keçirilməsi öz bəhrəsini verməkdədir.

Stimullaşdırıcı kampaniyalara qoşulan bankların sayının artması həm də bu cür layihələrin sayının ötən ilin eyni dövrü ilə müqayisədə iki dəfədən cox artmasına səbəb olub.

A.Quliyevin sözlərinə görə, Mərkəzi Bank ötən ildən başlayaraq kommersiya banklarını stimullaşdırıcı kampaniyaların sayının artırılmasına təşviq etmək və yeni layihələrə başlamağa həvəsləndirmək məqsədilə müxtəlif nominasiyalar müəyyənləşdirib. Bu təşəbbüs bankların nağdsız hesablaşmaların genişləndirilməsi, müasir bank texnologiyalarından istifadənin artırılması istiqamətində fəaliyyətinin yüksəlməsinə səbəb olub. MB, fəaliyyət strategiyasına uyğun olaraq, 2014-cü ildə də nağdsız ödənişlərin inkişafı üzrə əlavə nominasiyalar təsis edib. «Nağdsız ödənişlər üzrə lider bank», «Elektron bankçılıq xidmətlərində lider bank», «Elektron ticarətin inkişafında lider bank», «Təsərrüfat subyektlərində nağdsız ödənişlər üzrə lider bank» nominasiyalarının tətbiqində başlıca məqsəd ölkədə elektron ödəniş sistemlərinin güclənməsini təmin etməkdir.

A.Quliyev onu da bildirib ki, nağdsız ödənişlər bazarının həcminin artması bank sisteminin resurs bazasının genişlənməsinə, faiz dərəcələrinin azalmasına və iqtisadiyyatın kapitalizasiya imkanlarının çoxalmasına səbəb olur, nəticədə iqtisadi artım sürətlənir. Nağdsızlaşma makroiqtisadi idarəetməni asanlaşdırmaqla iqtisadiyyata təsir vasitələrini artırır. Nağdsız ödənişlərin üstünlük təşkil etdiyi şəraitdə iqtisadiyyatda maliyyə intizamı və şəffaflıq güclənir.

Qeyd edək ki, POS-terminalların quraşdırılması və nağdsız ödənişlər üçün müvafiq infrastrukturun yaradılması, bu sahədə stimullaşdırıcı tədbirlərin keçirilməsi, əhalinin fəallığının artırılması Vergilər Nazirliyinin də marağında olduğu məsələlərdir. Hazırda nağdsız ödənişlər infrastrukturunun təkmilləşdirilməsi məqsədilə nazirlik tərəfindən bu sahədə ən qabaqcıl beynəlxalq təcrübə araşdırılaraq təhlil edilir, yeni nəsil ödəniş cihazlarının ölkəmizdə tətbiqi imkanları qiymətləndirilir.

**Elbrus CƏFƏRLİ**

# Proqnozlar nikbindir

## *Qarşıdakı illərdə büdcə gəlirləri 35 milyard dollara çatacaq və büdcədə vergi daxiolmalarının həcmi artacaq*

*Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə Azərbaycanda davam edən iqtisadi inkişafın ortamüddətli dövrdə ümumi daxili məhsulun (ÜDM) həcminin və dövlət büdcəsinin gəlirlərinin artmasına səbəb olacağını bildirib.*

Yaxın 3-4 ildə Azərbaycanda illik 5%-lik iqtisadi artım fonunda ÜDM-in həcminin 70 milyard manatı ötəcəyi proqnozlaşdırılır. Komitə sədrinin sözlərinə görə, hazırda Azərbaycanda ÜDM-in həcmi 73 milyard dollar, adambaşına düşən illik milli gəlir 7,8 min manat təşkil edir və respublikamız MDB ölkələri arasında Rusiya və Qazaxıstanla birgə ilk sıralarda dayanır.

daxilolmaların cəlb edilməsi nəzərdə tutulur. Büdcə xərcləri daha çox sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması nəticəsində əldə olunacaq resurslar hesabına formalaşdırılacaq. Dövlət büdcəsi gəlirlərinin yığım əmsalının artırılması, mülkiyyət və yol vergilərinin dərəcələrinin optimallaşdırılması, əməkhaqqının gəlir vergisinin vergi tutulmayan məbləğinin yaşayış minimumuna yaxınlaşdırılması, vergitutma bazasının genişləndirilməsi, vergidən yayınma hallarının qarşısının alınması tədbirləri davam etdiriləcək.

2014-2018-ci illər üçün büdcə siyasəti ölkənin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla iqtisadiyyatın prioritet sahələrinin modernləşməsinə və onun effektivliyinin, qarşıda duran mühüm vəzifələrdəndir. Büdcə qanunvericiliyinin ölkənin iqtisadi islahatlarının tələblərinə uyğun təkmilləşdirilməsi, iqtisadi siyasət, proqnozlaşdırma və dövlət büdcəsi layihəsinin tərtibində əlaqələrin uzlaşdırılması, açıq büdcə göstəricilərinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi ortamüddətli dövr üçün qarşıda duran vəzifələr sırasındadır.

İqtisadçı Əli Məsimlinin sözlərinə görə, qarşıdakı illərdə dövlət büdcəsi əsasən qeyri-neft gəlirləri hesabına təmin olunduğundan, vergi-gömrük və digər sahələrin büdcədəki payının yüksəlməsi də realdır. Qeyri-neft-qaz sektorundan əldə olunacaq əlavə vəsaitlərin əsas mənbəyi vergi və gömrük daxilolmaları hesab edilir.

*Vergidən yayınma hallarına qarşı təsirli mübarizə tədbirləri sırasında partnyorluq sazişinin bağlanmasının təmin edilməsi başlıca istiqamətlərdən hesab olunur*

Qiymətləndirmələrə əsasən, 2018-ci ilədək ÜDM-in 100 milyard dollara çatması sayəsində dövlət büdcəsinin gəlirlərində əhəmiyyətli artım baş verəcək və büdcə vəsaitlərinin illik 1,2-1,3 milyard manat artması nəticəsində büdcə zərfi təxminən 27 milyard manata (35 milyard dollar) bərabər olacaq. Z.Səmədzadənin qənaətinə görə, ölkəmizdə büdcə tərtibinin təsnifatına əsasən, dövlət büdcəsi parametrlərinin xüsusi çəkisi ÜDM-in 32-33%-ni təşkil edir və bu yanaşma dövlət büdcəsinin gəlirlərinin 35 milyard dollara çatmasına imkan verir.

Maliyyə eksperti Aydın Hüseynovun sözlərinə görə, qarşıdakı illərdə Azərbaycanda büdcə gəlirlərinin artım dinamikası ilə bağlı proqnozlar nikbindir. Ölkə iqtisadiyyatının son onillik üzrə iqtisadi təhlili onu göstərir ki, maliyyə-büdcə siyasəti ilə bağlı heç bir problem olmayıb. Hətta 2008-2009-cu illərdə qlobal maliyyə böhranı zamanı da büdcə gəlirlərində azalma baş verməyib. Son 10 il ərzində dövlət büdcəsi gəlirləri 16 dəfədən çox artaraq 20 milyard manatı keçib. Hazırda respublikamızın dövlət büdcəsi vəsaitlərinin həcmi Cənubi Qafqaz ölkələrinin ümumi büdcəsinin 78%-ni təşkil edir.

Ortamüddətli dövrdə dövlət büdcəsi gəlirlərinin sabitləşdirilməsi, qeyri-neft sektoru və digər real mənbələr hesabına büdcəyə əlavə uzunmüddətli dayanıqlığının təmin edilməsi üçün şəraitin yaradılmasına, investisiya mühitinin daha da yaxşılaşdırılmasına yönəldiləcəkdir. Ölkənin makroiqtisadi göstəricilərinin sabit artımına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, maliyyə intizamının gücləndirilməsinə və şəffaflığın dərinləşdirilməsinə nail olmaq, iqtisadiyyatın tənzimlənməsində dövlət büdcəsinin rolunu artırmaq, monetar və büdcə siyasətinin koordinasiyasını əlaqələndirmək əsas məqsədlərdəndir. Regionların inkişafının sürətləndirilməsinə, bölgələr arasındakı sosial-iqtisadi fərqlərin mərhələlərlə aradan qaldırılmasına və balanslaşdırılmış inkişafa nail olunmasına, respublikanın rayon və şəhərlərinin yerli gəlirləri hesabına mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitlərin azaldılmasına diqqət artırılacaqdır. Qarşıdakı dördillik dövrdə ölkənin daxili resurslarının payının artırılması hesabına iqtisadiyyata daha çox sərmayə qoyulması, mərhələlərlə xərclərin orta və uzunmüddətli dövrləri əhatə edən proqramlar əsasında proqnozlaşdırılmasının daha da genişləndirilməsi, funksional səviyyədə xərclərin strukturunun təkmilləşdirilməsi, dövlət zəmanəti ilə iqtisadiyyata cəlb olunan və dövlət büdcəsində dövlət investisiya xərcləri üçün nəzərdə tutulmuş vəsaitin prioritet istiqamətlər üzrə bölgüsü və həmin vəsaitlərə nəzarəti daha da artırmaq

Ölkə iqtisadiyyatının proqnozlaşdırılan inkişaf tempi, qeyr-neft sektoruna yatırılan investisiyaların həcminin artması və bunun müqabilində həmin sahədə iqtisadi fəallığın yüksəlməsi, yeni istehsal müəssisələrinin yaradılması, sahibkarlıq subyektlərinin fəaliyyətə başlaması və digər tədbirlər neftdənkənar bölmələrdən əlavə vəsaitlərin əldə olunacağını şərtləndiririr. Digər tərəfdən, regionların inkişafı sahəsində son dövrlərdə həyata keçirilən tədbirlər nəticəsində regionlarda iqtisadiyyatın əhəmiyyətli dərəcədə inkişafına nail olunub və vergi daxilolmaları artıb. Yeni proqram çərçivəsində regionlardan daxiolmaların da əhəmiyyətli dərəcədə artacağı proqnozlaşdırılır.

Vergidən yayınmaların qarşısının alınması məqsədilə nağd hesablaşmaların məhdudlaşdırılması və transfert qiymətlərinin tətbiqinə nəzarətin gücləndirilməsi, ƏDV-nin vergitutma bazasının genişləndirilməsi mühüm əhəmiyyət daşıyır. Vergidən yayınma hallarına qarşı təsirli mübarizə tədbirləri sırasında partnyorluq sazişinin bağlanmasının təmin edilməsi də başlıca istiqamətlərdən hesab olunur. Bu sazişin bağlanması könüllü əməletmə səviyyəsinin artmasında mühüm vasitə olmaqla yanaşı, vergilərin artım tempinə təsirini göstərən amil kimi qiymətləndirilir.

**Elbrus CƏFƏRLİ**

Azərbaycanda «İnsan hüquqları aylığı»dır

# Sahibkarların hüquqlarının qorunması naminə...

## *Vergilər Nazirliyi ilə Sahibkarlar Konfederasiyası arasında əməkdaşlıq genişlənir*

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin davamlı inkişafı dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissələrindən birini təşkil təşkil edir. Bu istiqamətdə dövlət tərəfindən ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin formalaşdırılması, maarifləndirmə və müxtəlif növ xidmətlərin göstərilməsi sahələrini əhatə edən kompleks tədbirlər həyata keçirilir.

MDB məkanında iqtisadiyyatda artım tempini saxlamağa nail olan qabaqcıl ölkələrdən olan Azərbaycan milli iqtisadiyyatın rəqabət qabiliyyəti göstəricilərinə görə dünyada 144 dövlət arasında 39-cu yerdədir. Ötən 10 ildə ölkədə sahibkarlıq subyektlərinin sayı 2,9 dəfə çoxalıb, 3592 istehsal və xidmət müəssisəsi yaradılıb, 1 milyon 200 mindən artıq iş yeri açılıb, işsizlik 5%-ə düşüb.

Həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət gayğısının artırılmasına və ən əsası, mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır. Bu istiqamətdə görülən işlərin davamlılığı, zamanın tələblərindən irəli gələn rasional təkmilləşdirmələrin aparılması dövlətin diqqət mərkəzində olam ümdə məsələlərdəndir. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış fərman və sərəncamlar sahibkarlara dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini bir daha sübut edir. Bunun bariz nümunəsi kimi 28 avqust 2013-cü il tarixdə Azərbaycan Prezidentinin fərmanı ilə təsdiq edilmiş «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanunu göstərmək olar. Bu sənəddə yoxlamaların məqsəd və prinsipləri, onun tətbiq dairəsi, yoxlayıcı orqanların səlahiyyətləri ilə bərabər sahibkarlara məsləhətlər verilməsi də nəzərdə tutulmuşdur. Qanunda sahibkarlar tərəfindən yoxlayıcı orqanların qərarlarından şikayət etmək qaydaları da müəyyən edilmişdir ki, bu da onların hüquqlarının müdafiəsi üçün ciddi zəmin yaradır.

Müasir qloballaşma şəraitində - ölkədə sahibkarlıq mühitinin və sahibkarlıq subyektlərinin potensial imkanlarının düzgün müəyyən olunması, həmçinin iş adamları üçün müvafiq ixtisaslaşmanın aparılması və təkmilləşdirilməsi istiqamətində elmi proqramların təklif edilməsi, iqtisadiyyat, biznes, vergi qanunvericiliyi və idarəetmə sahəsində iş adamlarını maarifləndirən lazımi kursların təşkil olunması çox mühümdür. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası mövcud beynəlxalq və ölkə qanunvericiliyinə əsaslanaraq, sosial-iqtisadi siyasət və sosial-əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş bağlayıblar. Düşünürük ki, ölkədə sahibkarlığın inkişafı ilə bağlı aparılan dövlət siyasətinin və sahibkarlıq fəaliyyətinin tənzimlənməsində dövlət orqanları, o cümlədən Vergilər Nazirliyi ilə sahibkarların əməkdaşlıq münasibətlərinin genişləndirilməsinə və daha da inkişaf etdirilməsinə böyük ehtiyac var.

Hər birimiz üçün fərəhləndirici haldır ki, Vergilər Nazirliyi ilə Azərbaycan Sahibkarlar Konfederasiyası arasında respublika iqtisadiyyətının inkişafı naminə bir sıra faydalı təşəbbüslər irəli sürülmüş, konkret addımlar atılmışdır. Qeyd etməyə dəyər ki, artıq altı ildir Vergilər Nazirliyi ilə Azərbaycan Sahibkarlar Konfederasiyası Bakıda və ölkəmizin regionlarında yaradılmış vergi ödəyicilərinə xidmət mərkəzlərində sahibkarlara çox uğurla xidmət sahəsində birgə əməkdaşlıq edirlər və bu əməkdaşlıq öz müsbət bəhrələrini verir. Bu mərkəzlərdə göstərilən xidmətlərin böyük əksəriyyəti hüquqi və normativ səciyyə daşıyır və vergi ödəyicilərinin hüquqlarının təmin olunmasına xidmət edir.

Vergi-hüquq münasibətlərinə dair yeni qanunvercilik aktlarının, normativ hüquqi sənədlərin, həmçinin mövcud vergi qanunvericiliyinə ediləcək dəyişiklik və əlavələrin layihələrinin hazırlanmasında və müzakirələrdə konfederasiyanın nümayəndələri fəal iştirak edirlər ki, bu da yeni qanun layihələrinin və təkliflərin həyati və əməli aspektlərinin müəyyənləşdirilməsində mühüm rol oynayır.

Ancaq bir məsələni də etiraf etmək zəruridir ki, Vergilər Nazirliyi ilə Azərbaycan Sahibkarlar Konfederasiyası arasında əməkdaşlığı daha da inkişaf etdirmək, respublika iqtisadiyyatının inkişaf etdirilməsi və digər tədbirlərin həyata keçirilməsi üçün hər tərəfdən 10 nəfər olmaqla 20 nəfərdən ibarət yaradılmış işçi qrupunun fəaliyyətinin canlandırılmasına, gələcəkdə qrupun tərkibinə və fəaliyyət planlarına yenidən baxmağa ehtiyac var.

Hesab edirik ki, vergi orqanları ilə sahibkar münasibətlərinin daha da inkişaf etdirilməsi, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, bu sahədə baş verən dəyişikliklərin sahibkarlara çatdırılması və birgə xidmət apardığımız vergi ödəyicilərinə xidmət mərkəzləri və digər sahələr üzrə birgə əməkdaşlığı ardıcıl olaraq davam etdirməliyik.

**Tapdıq OSMANOV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası hüquq şöbəsinin müdiri***

# Elmtutumlu sənaye müəssisələrinin yaradılması prosesi sürətlənir

*Biliklərə əsaslanan iqtisadiyyatın inkişaf etdirilməsi, rəqabətqabiliyyətli və ixracyönlü yüksək texnologiyalar sektorunun formalaşdırılması, bu sahədə dünya standartlarına cavab verən məhsulların istehsalı istiqamətində tədbirlərin əhatə dairəsi genişlənir. Bu məqsədlə hökumət qeyri-neft sektorunun rentabelli sahələrindən sayılan elmtutumlu sənaye müəssisələrinin yaradılmasına ciddi dəstək verir.*

«Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya»da göstərildiyi kimi, qloballaşma dövründə informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılması zəruridir. Sənəddə innovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsinin vacibliyi də önə çəkilib.

Ölkə başçısının «Yüksək Texnologiyalar Parkının yaradılması haqqında» fərmanı elmtutumlu sənaye potensialının gücləndirilməsinə yeni təkan verib. Fərmanda göstərildiyi kimi, bu cür parkların yaradılmasında başlıca məqsəd innovativ və biliklərə əsaslanan iqtisadiyyatın qurulması, intellektual biznesin dəstəklənməsi, iqtisadiyyatın İKT sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsi, xarici investisiyaların cəlb edilməsi, insan resurslarının inkişafı və müvafiq menecment bazasının yaradılmasıdır.

«YT Park»ın fəaliyyətinin təşkili və idarə olunması məqsədilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində «Yüksək Texnologiyalar Parkı - «YT Park» Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb. «YT Park» MMC-nin nizamnamə kapitalının, habelə ilkin mərhələdə saxlanma xərclərinin maliyyələşdirilməsinin dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulub. Fərman əsasında qurum üçün Bakının Pirallahı rayonunda 50 hektar torpaq sahəsi də ayrılıb.

«Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya»nın 8-ci bəndində yüksək texnologiyalar sektorunun inkişafı məqsədilə istehsalın stimullaşdırılması, bu sahədə azad və şəffaf rəqabət şəraitinin inkişaf etdirilməsi, biznes və investisiya mühitinin cəlbediciliyinin artırılması, müasir texnologiyaların idxalının genişləndirilməsi üçün xüsusi vergi və gömrük rejimlərinin tətbiqi nəzərdə tutulur. İnnovativ sahibkarlığın inkişaf etdirilməsi, elmtutumlu və yüksək texnoloji məhsulların yaradılmasına və dünya bazarlarına çıxışına dəstək verən tədbirlərin genişləndirilməsi, yeni texnologiyaların işlənilməsi üçün texnoparkların, biznes inkubatorlarının və digər innovasiya strukturlarının inkişafı məsələləri diqqət mərkəzində olacaqdır. Strategiyada biznes sektorunda İKT-nin tətbiqinin genişləndirilməsi, internet iqtisadiyyatının, o cümlədən elektron ticarətin inkişafı, informasiya cəmiyyətinin inkişafına yönəldilmiş fundamental və tətbiqi elmi tədqiqatların genişləndirilməsi, yüksək texnologiyalar üzrə «start-up» layihələrinin həyata keçirilməsi məsələləri də dəstəklənir.



Ölkə başçısının 2014-cü il 15 may tarixli «Texnologiyalar parkı haqqında nümunəvi əsasnamənin təsdiq edilməsi haqqında» fərmanı ilə yüksək texnologiyalar parklarının yaradılmasının hüquqi-təşkilati əsasları müəyyən edilib. Əsasnamə dövlət tərəfindən bu parkların yaradılması, idarə edilməsi və onlarda fəaliyyətin həyata keçirilməsi məsələlərini tənzimləyir. Sənədə əsasən, texnologiyalar parkı dedikdə, «İnnovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədi ilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi (kommersiyalaşdırılması) üçün zəruri infrastrukturu, maddi-texniki bazası və idarəetmə qurumları olan ərazi» nəzərdə tutulur.

Əsasnamədə qeyd olunur ki, texnoparklar iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması; müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiyalar sahələrinin genişləndirilməsi; elmi tədqiqatların aparılması və yeni texnologiyaların işlənilməsi üzrə müasir komplekslərin yaradılması məqsədi güdür. Texnoparklar dövlət elm və təhsil müəssisələri yanında və ya müstəqil yaradıla bilər. Texnoparkda fəaliyyət göstərmək üçün hüquqi və fiziki şəxslər əsasnamə ilə müəyyən edilmiş qaydada qeydiyyatdan keçərək şəhadətnamə almalıdırlar.

Azərbaycanda hazırda 2 sənaye və 3 texnoparkın yaradılması istiqamətində intensiv iş aparılır. Xatırlatmaq yerinə düşər ki, hökumət bu sahənin inkişafını stimullaşdıracaq tədbirləri də xüsusi diqqət mərkəzində saxlayır. 2013-cü il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, orta və uzunmüddətli perspektivdə texnoparkların inkişafının stimullaşdırılması üçün sənaye və texnologiyalar parklarında çalışan fiziki və hüquqi şəxslərə, eləcə də parkların idarəedici təşkilat və operatorlarına gəlir, mənfəət, ƏDV, əmlak və torpaq vergiləri üzrə 7 illik vergi güzəştləri nəzərdə tutulub. Bu güzəştlər iqtisadiyyatın inkişafına müsbət təsir göstərməklə sənaye sektoruna xarici investorların cəlb olunmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli, elmtutumlu sənaye məhsullarının istehsalına, yeni iş yerlərinin açılmasına imkan yaradır.

Yüksək texnologiyalar parklarının yaradılması ölkə iqtisadiyyatının inkişafını sürətləndirməklə yanaşı, xarici iqtisadi əlaqələrə də müsbət təsir göstərəcək. Ən əsası, bu cür texnoloji parklar informasiya-kommunikasiya texnologiyaları sektorunda fəaliyyət göstərən elm, təhsil, investisiya və istehsal sahələri arasında əlaqəni təmin edəcəkdir.

**S.MUSTAFAYEV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Sahibkarlıq fəaliyyətində nümayəndəlik xərclərinin auditi

Nümayəndəlik xərcləri işgüzar məqsədli qonaqların dəvəti və iştrakı ilə bağlıdır. Kommersiya müəssisəsində bu xərclərin tanınması və vergitutma məqsədlərinə cavab verməsi üçün audit zamanı:

- İlkin uçot sənədləri dəvət olunan şəxsin deyil, müəssisənin adına rəsmiləşdirilməlidir;
- Vergitutma məqsədləri baxımından bu xərclər sahibkarlıq fəaliyyətinə aid edilən olmalıdır, qeyri-kommersiya xarakterli olmamalıdır;
- Aparılan sənədləşmələr dəvət olunan tərəfdə vergidən yayınma halı yaratmamalıdır;
- Dəvətlə (işgüzar görüşlə) bağlı digər qeyri-mühasibat sənədləri ilkin uçot sənədlərinə əlavə edilməlidir.

Nümayəndəlik xərclərini təsdiq edən ilkin uçot sənədlərinin faktiki mövcudluğu təsərrrüfat əməliyyatının baş verdiyini sübut etməyə əsas olmasına baxmayaraq, həmin sənədlərin nümayəndəliklə bağlılığına təminat verməsini təsdiq edən qeyri-mühasibat (maliyyə) sənədlərinin də toplanması məqsədəuyğun olardı. Qeyri-mühasibat sənədləri nümayəndəliklə bağlı əməliyyatların real baş verməsini bir daha sübut etməyə imkan verir.

Qeyri-mühasibat sənədlərinə aşağıdakıları aid etmək olar:

- İşgüzar görüşün (tədbirin, iclasın) müəssisənin rəhbəri və ya səlahiyyətli şəxsi tərəfindən təsdiqlənmiş proqramı. Proqramda tədbirin məqsədi, keçirilmə vaxtı və yeri də göstərilməlidir.
- Dəvət olunmuş nümayəndələrin siyahısı. Siyahıda həmin şəxslərin adı, soyadı və atasının adı, şəxsiyyətini təsdiq edən sənədin rekvizitləri, nümayəndə xarici vətəndaş olduğu halda viza sənədlərinin surətləri, hansı müəssisəni təmsil etmələri göstərilə bilər.
- Nümayəndələrə dəvətlə bağlı göndərilən məktublar. Məktubda nümayəndənin nəqliyyat, kommunal, yemək və digər zəruri xərclərinin müəssisə tərəfindən ödənilib-ödənilməməsi barədə qeydlərin göstərilməsi məqsədəuyğundur.
- Xüsusi hazırlanmış siyahıda nümayəndələrin iştirak etmələrinin təsdiqi məqsədilə tədbirdə imzaların edilməsi.
- Tədbirin məqsədini, baş tutduğunu, həqiqi iştirakı təsdiq edən digər sənədlər.

Göstərilən qeyri-mühasibat (maliyyə) sənədləri çəkilmiş xərclərin tanınmasında və vergi məqsədləri üçün gəliri ilə bağlı olub-olmaması barədə rəy formalaşdırmaqda faydalı ola bilər.

Qonaqların dəvət və iştirakla bağlı xərcləri, yəni nümayəndəlik xərcləri bunlar ola bilər:

1. Nümayəndələrin rəsmi qəbulu zamanı yemək və çay süfrəsi üzrə xərclər. Nümayəndələrin nahar, şam və çay süfrəsi təminatını həm tədbirin keçirildiyi ixtisaslaşmış kənar müəssisədə, həm müəssisənin daxili yardımçı təsərrüfatı sayılan yeməkxanasında, həm də kənar restoran və kafelərdə həyata keçirmək olar. Təsdiqedici sənəd kimi bufet (restoran) xidməti göstərən tərəfin müəssisənin (nümayəndələri dəvət edənin) adına rəsmiləşdirdiyi kassa çeki və menyu qaimələri və ya daxili yeməkxananın icraçı işçisinin təqdim etdiyi aylıq hesabat (ilkin sənədlərlə birlikdə) qəbul edilir.

2. Nümayəndələrin kommunal xərcləri. Nümayəndələrin mehmanxanalarda yerləşdirilməsi ilə bağlı xərclər buna aiddir. Təsdiqedici sənəd kimi mehmanxananın müəssisəyə təqdim etdiyi qəbz (ciddi hesabat blankı) ola bilər. Qəbz nümayəndələri dəvət edən müəssisənin adına olmalıdır.

3. Nümayəndələrin nəqliyyat xərcləri. Nümuyəndələrin təyyarə və ya avtobus biletlərinin dəyərinin ödənilməsi, ayrıca nəzərdə tutulmuş nəqliyyat vasitəsilə aeroportdan və ya vağzaldan müəssisənin (işgüzar görüşün keçiriləcəyi) yerləşdiyi yerə gətirilməsi, oradan mehmanxanaya aparılması və geriyə qaytarılması, məssisənin digər obyektlərinə aparılması və gətirilməsi ilə bağlı xərclər buna aiddir. Təsdiqedici sənədlər təyyarə və ya avtobus biletinin əsli, nəqliyyat vasitəsi digər nəqliyyat müəssisəsinə məxsus olduğu halda, həmin müəssisənin təqdim etdiyi hesab-faktura, nəqliyyat vasitəsi müəssisənin olduqda isə faktiki sərf olunan yanacaq barədə kassa çeki və bu çeklərə əlavə edilmiş qaimələr, sürücünün əməkhaqqının hesablanmasına dair cədvəl ola bilər.

4. Tərcüməçilərin, foto və videoçəkilişlərin və tədbirlə bağlı digər xərclərin haqqının ödənilməsi. Bu xərclərə kənar tərcüməçilərin, videooperatorların, fotoqrafların haqqının ödənilməsi aiddir. Bu sahələr üzrə ixtisaslaşmış hüquqi şəxsin işçisi və ya fərdi sahibkar kimi fəaliyyət göstərən şəxslərlə müqavilə bağlamaq olar. Təsdiqedici sənəd - həmin şəxslər tərəfindən təqdim olunan xidmətlərin göstərilməsi ilə bağlı təhvil-qəbul aktı və ödəmə barədə bank və ya kassa sənədi ola bilər.

İlk baxışda nümayəndəlik xərclərinə aid edilən əməliyyatların quruluşunun ezamiyyə xərclərinə aid edilən əməliyyatlara uyğun gəlməsindən bəzən sui-istifadə halları da olur. Vergi Məcəlləsində nümayəndəlik xərcləri barədə ayrıca müddəa verilməyib. Gəlirdən çıxılmayan və gəlirdən məhdudlaşdırılmaqla çıxılan xərclərin tərkibində də nümayəndəlik xərcləri barədə konkret məzmunlar göstərilməyib. Əgər gəlirin alınması ilə bağlı sənədləşdirilmiş məlumat əsasında nümayəndəlik xərcləri çəkilmişdirsə, həmin xərcləri gəlirdən çıxmaq olar. Əks halda, xərclərin gəlirdən çıxılmasına yol verilmir.

Ümumiyyətlə, kommersiya müəssisələrində nümayəndəlik xərclərinin mənfəət vergisinin müəyyənləşdirilməsi məqsədilə gəlirdən çıxılan xərclərə aid edilməsi ciddilik və dürüstlük tələb edir. Nümayəndəlik xərclərinin məhz gəlir ilə bağlı olduğuna tam əminlik üçün bütün mümkün sənədləşmələrdən istifadə olunmalı, əməliyyatların məzmunlarının yazılışındakı ifadələr çaşqınlıq yaratmamalıdır.

# Həmkarlar təşkilatı hesabat verdi

## Əsas hədəf əməkdaşların sosial rifahını yaxşılaşdırmaq olacaq…

Ötən həftə Vergilər Nazirliyi Aparatının ilk həmkarlar təşkilatının hesabat-seçki yığınncağı keçirilmişdir. İclası giriş sözü ilə açan Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) sədri Məmməd Məmmədov bildirnmişdir ki, Vergilər Nazirliyi yaradıldığı vaxtndan bəri həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində respublikanın vergi sistemində böyük nailiyyətlər və yüksək göstəricilər əldə edilmişdir və ilk həmkarlar təşkilatı bu uğurların qazanılmasında maraqlı tərəf olmuşdur.

Nazirliyin Mərkəzi Aparatının ilk həmkarlar təşkilatının sədri Şöyüb Məmmədov görülən işlər barədə məlumat verərək bildirmişdir ki, ikiillik müddəti əhatə edən hesabat dövrü ərzində həmkarlar təşkilatı öz işini günün tələbləri səviyyəsində qurmağa çalışmış, bu istiqamətdə müəyyən işlər görülmüşdür. Vətəndaşların ərizə, şikayət və müraciətlərinə vaxtında baxılmış və lazımi cavablar verilmışdir. Hesabat dövründə nazirliyin Aparatının əməkdaşları üçün sanatoriya və istirahət evlərinə 39 yollayış verilmiş, işçilərdən 73 nəfərinə maddi yardım edilmişdir. Bundan əlavə, mədəni-kütləvi tədbirlərin təşkili də diqqət mərkəzində olmuş, həmkarlar ittifaqı xətti ilə əməkdaşların müxtəlif konsert və tamaşalarda iştirakı təmin olunmuşdur.

Bayramlarda Vergilər Nazirliyi tərəfindən Ağcabədi və İmişli rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələrinə ərzaqla yardım edilmişdir.

2012-2014-cü illər ərzində BHİK tərəfindən vergi əməkdaşlarının «Masallı» istirahət zonasına ekskursiyaları təşkil edilmişdir. Bildirilmişdir ki, Vergilər Nazirliyi Aparatının əməkdaşlarının sağlamlığı nazirlik rəhbərliyinin və BHİK-in daim diqqət mərkəzindədir. 2012-2014-ci illər ərzində aparatın bütün işçiləri tibbi sığorta edilmişdir. İşçilərin hüquqlarının daha yaxşı qorunmasının təmin edilməsi üçün Vergilər Nazirliyi ilə Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı arasında 2012-2014-cü illər üzrə Sahə kollektiv Sazişi imzalanmışdır.

«İşimizdə çatışmazlıqlar da vardır və ümidvaram ki, seçiləcək ilk həmkarlar təşkilatının yeni heyəti gələcəkdə bu məsələlərə daha ciddi yanaşacaq, həmkarlar təşkilatının işindəki çatışmazlıqların aradan qaldırılması üçün bütün səy və bacarığını əsirgəməyəcəkdir», - Ş.Məmmədov qeyd etmişdir.

Hesabat dinlənildikdən sonra nazilik Aparatının ilk həmkarlar təşkilatına yeni sədr və 13 nəfər heyət üzvü seçilmişdir. Səsvermənin nəticəsi olaraq Şöyüb Məmmədov yenidən sədr vəzifəsini icra edəcək.

İclasdan sonra qəzetimizə qarşıdakı iki il ərzində görüləcək işlərin əsas istiqaməti barədə məlumat verən Ş.Məmmədov bildirmişdir ki, əsas hədəf əməkdaşların sosial rifahının daha da yaxşılaşdırılmasıdır: «Bu istiqamətdə işçilərin və onların ailə üzvlərinin istirahətinin və asudə vaxtlarının daha səmərəli təşkil edilməsi üçün nazirliyin BHİK ilə birlikdə silsilə tədbirlər hazırlayıb həyata keçirməyi planlaşdırırıq. Sanatoriya və istirahət evlərinə daha çox yollayışların əldə edilməsi üçün müvafiq işlər görüləcəkdir. Bir sözlə, fəaliyyətimizi günün tələbləri səviyyəsində qurmaqla nöqsanların təkrarlanmamasına calışacağıq».

**AYTƏN**

# Torpaq vergisi ödəyiciləri məlumatlandırılır

2014-cü il üçün torpaq vergisi bəyannamələrinin vaxtında təqdim edilməsi və hesablanmış vergilərin müəyyən edilmiş müddətə - mayın 15-dək ödənilməsini təmin etmək məqsədilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsi (www.taxes.gov.az) və 195 Çağrı Mərkəzi vasitəsilə vergi ödəyicilərinin sualları cavablandırılmış, vergi bəyannamələrinin vaxtında təqdim edilməsi məqsədilə 6035 vergi ödəyicisinin telefon nömrələrinə məlumatlandırıcı mesajlar göndərilmişdir.

2014-cü il üçün təqdim edilməli 9953 torpaq vergisi bəyannaməsindən 9246-sı və ya 92,9%-i vaxtında, onların da 8728-i və ya 94,4%-i elektron qaydada təqdim edilmişdir.

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**5-ci MƏRHƏLƏ** *(davamı)*

***Maliyyə hesabatlarının hazırlanması***

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatı sadə şəkildə aşağıdakı kimi də tərtib etmək olar:

Bizim misal üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatın tərtib olunması aşağıda göstərilən qaydada həyata keçirilmişdir:

Bu hesabatın 2-ci «İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti» və 3-cü «Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti» bölməsindəki sətirlərində əks etdirilən göstəricilərin xarakteri və qaynaqları 1-ci «Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti» bölməsində əks etdirilən göstəricilərin xarakteri və qaynaqlarından fərqlənir.

Buna görə də mühasib müəssisənin bütün pul hesablarına (kassa, bank hesabı, ƏDV depozit hesabı və digər pul hesablarına) daxil olan və çıxan vəsaitləri aşağıda göstərilən 3 qrupa (hesabatda göstərilən bölmələr üzrə) bölməyi bacarmalıdır:

1. Əməliyyat fəaliyyətinə aid edilən əməliyyatlar üzrə daxil olan (kənardan mədaxillər) və çıxan (kənara məxariclər) pul vəsaitləri.

2. İnvestisiya fəaliyyətinə aid edilən əməliyyatlar üzrə daxil olan (kənardan mədaxillər) və çıxan (kənara məxariclər) pul vəsaitləri.

3. Maliyyələşmə fəaliyyətinə aid edilən əməliyyatlar üzrə daxil olan (kənardan mədaxillər) və çıxan (kənara məxariclər) pul vəsaitləri.

Mühasib ilk növbədə nəzəri cəhətdən «Əməliyyat fəaliyyəti», «İnvestisiya fəaliyyəti» və «Maliyyələşmə fəaliyyəti» anlayışlarını mükəmməl bilməlidir ki, pul hesablarında baş verən əməliyyatları bu 3 qrup üzrə paylaşdıra bilsin. Məsələn, EXCEL faylında tarix ardıcıllığı ilə əməliyyat jurnalında əks etdirilən məbləğlərin qarşısında müvafiq olaraq «ə», «i» və «m» hərfləri qeyd etməklə (bir pul hesabından digər pul hesabına keçən vəsaitlər üzrə əməliyyatların qarşısını boş saxlamaqla, məsələn, bank hesabından kassaya götürülən, milli valyutada bank hesabından xarici valyutada bank hesabına konvertasiya olunan pul üzrə əməliyyatlar) və həmin hərflər üzrə «Filtr» girişi ilə əməliyyatları qruplaşdıraraq bir-birindən ayırmaq olar.

Amma hesabatı tərtib edərkən əməliyyat jurnalındakı kassa əməliyyatlarına aid olan göstəricilərin içərisindən yalnız «İnvestisiya fəaliyyəti» və «Maliyyələşmə fəaliyyəti» ilə əlaqəli göstəricilər nəzərə alınır. Kassa əməliyyatlarına aid «Əməliyyat fəaliyyəti» ilə əlaqəli göstəricilər hesabatın tərtib olunmasında «daxil olan və çıxan vəsaitlər» kimi istifadə olunmur. Məsələn, işçilərə verilən əməkhaqqı məbləğləri, alıcılardan onlara satılmış mallara görə daxil olan pullar, alınmış mallara (uzunmüddətli qeyri-maliyyə aktivləri istisna olunmaqla) görə malsatanlara ödənilən pullar hesabatda birbaşa əks etdirilmir. «Əməliyyat fəaliyyəti» ilə əlaqəli göstəricilər başqa formada emal olunaraq hesabatda əks etdirilir.

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
**«31» yanvar 2014-cü il tarixinə**

| Göstəricilər | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|
| I. Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | 37376 | |
| mənfəət vergisi üzrə xərclər | | 9344 | |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | 22500 | |
| Ehtiyatların (artması) azalması | | (111650) | |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri (artması) azalması | | (63400) | |
| əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması) | | 132810 | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **26780** | |
| II. İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti | | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəflərlə əlaqədar pul vəsaitlərinin xaricolmaları | | (75000) | |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | (75000) | |
| **III. Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | 30000 | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | 80000 | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar** | | **110000** | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **61780** | |

**Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti**

| | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **27000** | |
| İl ərzində xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | 0 | |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği** | | **88780** | |

## vergi təqvimi

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
20 iyun - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

beynəlxalq panoram

# Yaponiya istehlak vergisini ikiqat artıracaq

*Bu inkişaf etmiş ölkənin maliyyəçiləri dövlət borcunun artmasından narahatlıq ifadə edirlər - hazırda Yaponiyada dövlətin borcu ümumi daxili məhsulun həcmini iki dəfədən artıq üstələyir: borcun məbləği 10,8 trilyon dollara yaxınlaşır, 2015-ci ilin əvvəlinə 11 trilyon dollardan xeyli artıq olacaq.*




Yaponiyanın borc öhdəlikləri ABŞ, Almaniya, Böyük Britaniya, Kanada, Fransa, İtaliya kimi iqtisadi nəhənglərin daxil olduğu 7 aparıcı sənaye ölkələsi arasında ən yüksək göstəricilərdən birini təşkil edir.

Böyük məbləğdə borcdan yaranan riskləri dövlət istiqrazlarının yaponların özünə və ölkənin şirkətlərinə məxsus olması faktı bir qədər azaldır. Özü də həmin istiqrazlar üzrə gəlirlər çox hallarda sırf rəmzi xarakter daşıyır. Amma ekspertlərə görə, özlüyündə dövlət borcunun bu məbləğdə olması «fitili yandırılmamış barıt çəlləyinə» çevrilə bilər.

Buna görə də ölkənin Maliyyə Nazirliyi cari ildə məbləği daha 330 milyard dollar çoxala biləcək dövlət borcunun artım tempinin qarşısının alınmasına yönəlmiş təcili tədbirlər planı işləyib hazırlayır.

Bu məqsədlə hökumətə 2015-ci ildə alqı-satqı əqdləri üzrə istehlak vergisini indi mövcud olan 5%-dən 8%-dək yüksəltmək təklif edilir. 2016-cı ildən bu vergi 2% də artırılacaq və 10% təşkil edəcək. Başqa sözlə, iki il ərzində Yaponiyada alqı-satqı əqdləri üzrə istehlak vergisinin dərəcəsi ikiqat artacaq.

# Çin üçün hasil edilən qaz vergidən azad olunacaq

*Rusiya hökuməti 30 illik müqavilə əsasında Çinə göndəriləcək qazın faydalı qazıntılar üzrə vergi dərəcəsinin sıfıra endirilməsini prinsipcə bəyənmişdir. Baş nazirin müavini Arkadi Dvorkoviçin sözlərinə görə, vergi dərəcəsi yalnız ixrac edilən qazın həcminə tətbiq olunacaq.*

Əvvəllər bu verginin sıfır dərəcəyə endirilməsini Rusiya prezidenti V.Putin təklif etsə də, məmurların bir çoxu məsələnin müzakirəyə ehtiyacı olduğunu bildirmişdilər. Sibir qazının Çinə göndərilməsi haqqında saziş Rusiya ilə 15 illik müzakirələrdən sonra bu il mayın 21-də bağlanmışdır. Sazişin məbləği 30 il ərzində 400 milyard dollar təşkil edəcək. Qaz nəqlinin ümumi həcminə əsasən, onun qiyməti 1000 kubmetrə görə 350 dollardır və bu, təqribən bir sıra Avropa ölkələrinə göndərilən qazın qiymətinə bərabərdir.

Qaz Çinə Yakutiyanın Çandin yatağından «Sila Sibiri» qaz kəməri vasitəsilə göndəriləcək. Yatağın istismarına və boru kəmərinin çəkilməsinə investisiya qoyuluşunun ümumi məbləği 77 milyard dollardır və bunun 20 milyardı Çin tərəfinin üzərinə düşür.

Qaz göndərişləri «götür və ödə» prinsipi əsasında həyata keçiriləcək. Yəni alıcı müqavilədə nəzərdə tutulmuş həcmi qazın həmin anda ona lazım olub-olmamasına baxmadan satın almalıdır.

# Şotlandiya polietilen torbalara vergi tətbiq edir



Ölkə parlamenti bu addımı polietilen torbaların istifadəsini azaltmaq məqsədilə atıb. Oktyabrdan başlayaraq mağazada alış-veriş üçün birdəfəlik torbalar 5 penniyə satılacaq. Əldə edilən pullar xeyriyyəçilik məqsədlərinə sərf olunacaq.

Ətraf mühit məsələləri üzrə katib Riçard Lokxed səsvermədən əvvəl parlamentdə bildirib ki, ölkədə hər il təxminən 750 mln. birdəfəlik torbadan istifadə edilir, bu sayı azaltmaq üçün tədbirlər görülməsinin zamanı gəlib.

Polietilen torbalara minimal qiymət qoymaq ilk dəfə 2011-ci ildə Uelsdə müəyyən edilmişdir. Ötən ildən bu cür tədbirlərə Şimali İrlandiyada da müsbət yanaşılır.

*Xarici ölkələrin təcrübəsi:*

# Norveç Krallığının vergi sistemi: mənfəət vergisi

Norveç Krallığı Avropa İttifaqına daxil deyil, lakin həm enerji təhlükəsizliyi, həm də iqtisadi əhəmiyyətinə görə Avropanın ayrılmaz tərkib hissəsidir. Bu ölkə ÜDM-in adambaşına düşən məbləğinə görə dünyada ilk yerlərdən birini tutur. 2012-ci ildə ölkədə ÜDM 499,4 mlrd., adambaşına düşən ÜDM həcmi isə 99510 ABŞ dolları olmuşdur. ÜDM-in real artım tempi bir sıra Avropa dövlətləri ilə müqayisədə kifayət qədər yüksək - 3,1% olmuşdur.

Norveç Baş Vergilər Direktorluğu Maliyyə Nazirliyi tərkibində fəaliyyət göstərən, əsas vəzifəsi vergi və rüsumların düzgün və vaxtında dövlət büdcəsinə ödənilməsini təmin etmək olan dövlət qurumudur. Norveç Vergilər Direktorluğu 5 Ərazi bölgüsü, 2 xüsusi bölgü üzrə yerli orqanlara bölünmüşdür:

1) Ərazi bölgüsü üzrə: Şimali Norveç Vergilər orqanı, Mərkəzi Norveç Vergilər orqanı, Qərbi Norveç Vergilər orqanı (o cümlədən Xarici vergi münasibətləri Mərkəzi Ofisi), Cənubi Norveç Vergilər orqanı, Şərqi Norveç Vergilər orqanı (o cümlədən İri vergi ödəyiciləri üzrə Mərkəzi Ofis).

2) Neftin vergiyə cəlb olunması orqanı;

3) Vergi məlumatlandırılması orqanı.

Norveç Baş Vergilər Direktorluğunda 6390 nəfər vergi əməkdaşı çalışır. 1 vergi əməkdaşına düşən vergi ödəyicilərinin sayı 740, vergi daxilolmalarının məbləği isə 25 mln. 946,8 min ABŞ dolları təşkil edir.

2012-ci ildə Norveç Baş Vergilər Direktorluğunun xətti ilə dövlət büdcəsinə 165,8 mlrd. ABŞ dolları (o cümlədən birbaşa vergilər - 44,2%, dolayı vergilər - 21,7%, sosial fondlar - 12,4%, digər - 21,7) həcmində vəsait toplanmışdır.

Norveçdə vergi ödəyicilərinin sayı 4 mln. 731 min (ƏDV ödəyicilərinin xüsusi çəkisi 7,2%) təşkil edir. Vergi ödəyicilərinin əhalinin sayında xüsusi çəkisi 93,7%-dir.

***Norveçdə mənfəət vergisi***

Bu vergi növünün ödəyicilərinə məhdud məsuliyyətli cəmiyyətlər, qarşılıqlı sığorta təşkilatları, kooperativ cəmiyyətləri, həmçinin müstəqil şəkildə idarə olunan bütün şəxslər və müəssisələr daxildir.

Rezident müəssisələr dünya üzrə əldə etdikləri gəlirlərdən və kapital gəlirlərindən vergi ödəyirlər. Gəlir və kapital gəlirləri toplanaraq eyni dərəcə ilə vergiyə cəlb olunur. Bir sıra regional qrantlar mənfəət vergisindən azaddır.

Gəlirin əldə edilməsi, saxlanması və qorunması üzrə çəkilən xərclər gəlirdən çıxılır. Bunlara işçilərin əməkhaqları, müvafiq sosial sığorta ödənişləri, direktorlara ödənişlər, kreditlər üzrə faiz və komissiyalar, ümidsiz borclar və istiqrazlar üzrə yaranmış zərərlər və dolayı vergilər aiddir.




Paylanmış dividendlər və əyləncə xərcləri gəlirdən çıxılmır.

Norveçdə mənfəət vergisinin dərəcəsi Avropada mövcud olan ən sabit dərəcələrdəndir: 1995-ci ildən bugünədək dəyişməz olaraq 28%-dir. Gəlir və kapital gəlirləri cəmlənərək birlikdə eyni dərəcə ilə vergiyə cəlb olunur.

Sahibkarlıq fəaliyyətindən yaranmış zərər gələcək mənfəət hesabına kompensasiya edilmək məqsədilə qeyri-müəyyən müddətə gələcək dövrə keçirilə bilər. Adi və kapital zərərləri arasında fərq qoyulmur. Müəssisə ləğv edilirsə, onun ləğv olunduğu ildəki zərəri həmin ildən başlayaraq 2 il geriyə aid edilə bilər. Digər halda zərərin geriyə aid edilməsi nəzərdə tutulmamışdır.

***Stimullaşdırıcı güzəştlər***

*Tonnaj vergisi.* Norveçdə təsis olunmuş müəssisə istismar etdiyi gəmilərdən əldə etdiyi gəlirlər üzrə mənfəət vergisi əvəzinə gəmilərin məcmu tonnajından «tonnaj vergisi» ödəmək üsulunu seçə bilər. Müəssisə «tonnaj vergisi» ödəyicisi olmaq üçün konkret fəaliyyətlə məşğul olmalıdır. Bunun üçün istismar olunan gəmilərə və ya neft resurslarının axtarışı və hasilatında istifadə olunan daşınan əmlaka sahib olmalıdır.

*Araşdırma və inkişaf güzəşti.* Kiçik və orta müəssisələrə araşdırma və inkişaf güzəşti tətbiq olunur. Həmin müəssisələr araşdırma və inkişaf güzəşti işlərinə çəkdikləri xərclərin 18-20%-dək hissəsinə (maksimum 5,5 mln. Norveç kronu - 1 mln. ABŞ dolları) güzəşt tətbiq edə bilərlər. Lakin araşdırma və inkişaf güzəşti üzrə xidmətlər universitet və ya xüsusi araşdırma təşkilatından alınmışdırsa, maksimum məbləğ 11 mln. Norveç kronuna (2 mln. ABŞ dolları) qədər artırıla bilər. Araşdırma işləri Norveç Araşdırma Şurası tərəfindən təsdiq olunmalıdır.

***Mənfəət vergisi üzrə vergi*** ili cari ildən sonrakı təqvim ilidir.

***Vergi bəyannamələrinin təqdim edilmə müddəti*** - vergi bəyannaməsi kağız şəkildə olarsa - vergi ilindən sonrakı təqvim ilinin mart ayınadək, elektron şəkildə olarsa - may ayının sonunadəkdir.

Müəssisələr vergi ilindən sonrakı təqvim ilinin 15 fevral və 15 aprel tarixlərinədək avans ödənişləri etməlidirlər. Bu ödənişlərin hər biri müvafiq vergi dövründən əvvəlki dövrün vergi orqanının müəyyən etdiyi artma və azalmalar daxil olmaqla vergi qiymətləndirməsinin 50%-ni əhatə etməlidir. Əgər bu iki ödəniş gözlənilən vergi öhdəliyinin 100%-ni əhatə etməzsə, 1 may tarixinədək əlavə ödənişlər edilə bilər.

*Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır*

krossvord



**Yuxarıdan aşağı:**

1.Bakıda qəsəbə; 2.İnsan orqanizminə normal fəaliyyət üçün lazım olan müxtəlif tərkibli üzvi maddə; 3.Gələcək qastrollar, tamaşalar, konsertlər və s. tədbirlər barədə elan; 4.Eyni kimyəvi element atomlarının radioaktivliyə və atom çəkisinə görə bir-birindən fərqlənən formaları; 5.Burğulu mıx, vint; 6.Xalq artisti, «Qorxma, mən səninləyəm» filmində Telli obrazını canlandıran aktrisanın adı; 9.Bir idarə və ya müəssisədə çalışan işçilərin sabit heyəti; 13.Məkkədə müsəlmanların müqəddəs saydıqları ünvan - qibləgah; 15.Avropada dövlət; 16.Ucalıqda bir neçə səsin eyni zamanda birləşməsi və vahid səs kimi qavranılması; 17.Məşhur azərbaycanlı dirijor və bəstəkar; 18.Bərk süxur (daş); 20.Tünd, şirin, ətirli spirtli içki; 21.Hüquq termini, «qanuni» mənasını verir.

**Soldan sağa:**

1.Əsasən, oynaqlarda və əzələlərdə kəskin ağrılar şəklində təzahür edən, xalq arasında «yel» adlanan xəstəlik; 5.İntellektual idman oyunlarından birində fiqur; 7.Musiqi tempini təyin etmək üçün mexaniki cihaz; 8.Çəki vahidi; 10.İnsanın öz şəxsi və ictimai davranışını təyin edən mənəvi və əxlaqi prinsiplərin məcmusu; 11.Onurğa və hərəkət üzvlərinin sabit deformasiyalarının müalicəsi və profilaktikası ilə məşğul olan həkim; 12.Mineral; 14.Üzü hamar, parlaq ipək parça növü; 19.Uzunqanadkimilər dəstəsinə aid yeganə quş fəsiləsi. Bunlar arxaya uça bilən yeganə quşlardır; 21.Kollektivdə hamının aparıcılığını qəbul etdiyi nüfuzlu şəxs; 22.Delfinlər fəsiləsində heyvan növü; 23.Bitki yağları və heyvan mənşəli piylərdən hazırlanan qida məhsulu; 24.Ensiz; 25.Populyar Azərbaycan estrada müğənnisinin adı.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Pomada; 2.Akronim; 3.Tabor; 4.Karate; 5.Barri *(Uayt)*; 6.Şəfiqə *(Məmmədova)*; 9.Sent; 13.Qrad; 15.Kvintet; 16.Ksenon; 17.Somali; 18.Fikrət *(Əmirov)*; 20.Pafos; 21.Anqar.
**Soldan sağa:** 1.Praktikum; 5.Beş; 7.Marlboro; 8.Qraf; 10.Dönər; 11.Treninq; 12.Omeqa; 14.Etika; 19.Soprano; 21.Alibi; 22.Neft; 23.Qanqster; 24.Nis; 25.Prioritet.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

idman

# «Synergy Baku»nun üzvü Avstriyada üçüncü yeri tutmuşdur

*Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası «Synergy Baku»nun üzvləri Avstriyada Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı «Grand Prix Südkarnten» yürüşündə mübarizə aparmışlar.*




Birgünlük yarışda komanda üzvlərimizdən ən yüksək nəticəni Markus Eybeger göstərmişdir. Velosipedçimiz 174 iştirakçı arasında üçüncü yeri tutmuşdur. O, 193,6 kilometr məsafəni qaliblə eyni vaxtda - 4 saat 28 dəqiqə 21 saniyəyə bitirmiş və fotofinişə əsasən üçüncü nəticə göstərmişdir.

Azərbaycanın U-23 komandasının üzvü Samir Cəbrayılov finişi qalibdən 46 saniyə sonra keçən pelotonun içərisində olmuşdur. Yarışda ümumilikdə 17 komanda mübarizə aparmışdır.

# Dünya Kuboku yarışlarında yüksək nəticə

Minskdə bədii gimnastika üzrə Dünya Kuboku yarışları keçirilir. Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, yığma komandamızın lideri Marina Durunda şəxsi çoxnövçülükdə dörd hərəkət üzrə 68,51 bal toplayaraq yeddinci yeri tutmuşdur. 64,36 bal toplamış Gülsüm Şəfizadə 49 iştirakçı arasında 28-ci yerdədir.

Rusiyalı Yana Kudryavtseva (74,58 bal) yarışların qalibi olmuşdur.

Səbinə Abbasova, Siyana Vasileva, Aliyə Paşayeva, Diana Doman, Aleksandra Platonova və Aynur Mustafayevanın daxil olduğu Azərbaycan yığması qrup hərəkətlərində 33,3 bal toplayaraq 15 komanda arasında səkkizinci yeri tutmuşdur. Komanda birincilikdə Bolqarıstan yığması qalib gəlmişdir (34,8 bal).

Xatırladaq ki, bu yarışlar iyunun 13-dən 15-dək Bakıda keçiriləcək Avropa çempionatı ərəfəsində sonuncu böyük startdır.

# Velosipedçilərimiz Ərzurum turnirində

*Türkiyənin Batman şəhərində dağ velosipedi (mounten bayk) üzrə keçirilən «Batman Cup» Beynəlxalq turnirinin ardınca idmançılarımız qardaş ölkədə təşkil olunan daha bir yarışda mübarizə aparmışlar. Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) təqvim planına əsasən Ərzurumda təşkil olunan və çətinlik dərəcəsinə görə 2-ci kateqoriyaya aid edilən bu yarışda da Azərbaycan yığmasının 3 üzvü mübarizə aparmışdır.*

Batmanda olduğu kimi, bu dəfə də təmsilçilərimizdən ən yaxşı nəticə Aqşin İsmayılova məxsusdur. O, 1 saat 40 dəqiqə 47 saniyə göstərici ilə 30 iştirakçı arasında 10-cu yeri tutmuş və 1 reytinq xalı qazanmışdır.

Beynəlxalq Velosipedçilər İttifaqının qaydalarına əsasən, hər yarışda toplanan xallar velosipedçilərə daha nüfuzlu yarışlarda iştirak etməyə imkan yaradır.

Komandamızın digər üzvlərindən Orxan Məmmədov 11-ci, Murad Sultanov isə 12-ci olmuşdur.

Gələn il ölkəmizin ev sahibliyi edəcəyi ilk Avropa Oyunlarının proqramına dağ velosipedi də daxildir və Azərbaycan Velosiped İdmanı Federasiyası bu sahənin inkişafını xüsusi diqqətdə saxlayır. Əsas məqsəd idmançılarımızın Avropa Oyunlarında layiqli çıxışına nail olmaqdır.

# FİDE-nin yeni reytinq cədvəlləri dərc olunmuşdur

*Beynəlxalq Şahmat Federasiyasının (FİDE) 1 iyun 2014-cü il üçün rapid və blits üzrə reytinq cədvəlləri dərc edilmişdir.*

Kişilər arasında dünya üzrə birinci onluqlarda may ayı üçün reytinq cədvəlləri ilə müqayisədə heç bir dəyişiklik olmamışdır. Azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov bu dəfə də rapid üzrə siyahıda altıncı, blits üzrə - yeddinci yeri tutur. Onun cari reytinq göstəricisi (2822 xal) karyerası ərzində ən yüksək səviyyəyə çatmışdır.

Azərbaycan şahmatçılarından Teymur Rəcəbov, Rauf Məmmədov, Qədir Hüseynov və Eltac Səfərli də ilk yüzlüyə daxildirlər.

Klassik şahmatda Şəhriyar Məmmədyarov (2743) 16-cı, Teymur Rəcəbov (2724) 27-ci, Rauf Məmmədov (2659) 86-cı yerdədir.

Norveçli qrossmeyster Maqnus Karlsen (2881) əvvəlki kimi reytinqin favoritidir.



mozaika

## Yeddi min yaşlı mumiya

maraqlı



Çilidə yerli məktəblərdən birinin şagirdləri istirahət günlərində arxeoloji ekskursiya zamanı yeddi min yaşı olan mumiya tapmışlar. Tapıntı Peru ilə Çilinin sərhədi yaxınlığında aşkar edilmişdir. Mütəxəssislərin fikrincə, həmin mumiya bu ərazidə eramızdan əvvəl IX-II minilliklərdə mövcud olmuş Çinçorro mədəniyyətinə aiddir. Həmin yerlərə ekskursiyaların təşkilatçıları hesab edirlər ki, bu ərazini mühafizə olunan zonaya çevirmək lazımdır. Milli mədəni irsin qorunması üçün cavabdeh olan yerli hakimiyyət orqanları tapıntının ətraflı öyrənilməsi üçün oraya mütəxəssislər göndərmişlər.

Mumiyanın Çilidə bu il aprel ayında baş vermiş şiddətli zəlzələdən sonra üzə çıxdığı ehtimal edilir. «Time» qəzetinin verdiyi məlumata görə, həmin hadisədən sonra bir sıra başqa qiymətli artefaktlar da yerin səthinə çıxmışdır.

## Bir ildə 740 milyon məxfi fayl oğurlanmışdır

araşdırma



«Zurich insurance Group» sığorta şirkəti ilə «Atlantic Council» analitik agentliyinin birgə apardığı tədqiqata əsasən, 2013-cü ildə hakerlər tərəfindən 740 milyon məxfi fayl oğurlanmışdır. Hazırda təxminən 2,5 milyard insan müntəzəm olaraq internetdən istifadə edir. Orta hesabla isə hər bir insana şəbəkəyə qoşulmuş 6 cihaz düşür. Hər dəqiqə 204 milyon elektron məktub göndərilir, 640 terabayt həcmində məlumat ötürülür və 100 min tvit dərc edilir.

Bu gün məxfi informasiya ciddi iqtisadi çətinlik yarada biləcək həssas vəziyyətdədir. Hazırda dünyada fərdi şəxs və təşkilatları kibertəhdidlərdən qoruyacaq etibarlı texnologiya mövcud deyil.

## Velosiped küçələri

Yollarda hərəkət edən velosipedçilər arasında ölüm hadisələrinin sayını azaltmaq üçün Britaniya hökuməti adi hərəkət sxemlərini dəyişdirməyi qərara almışdır. Bu proqram çərçivəsində bəzi yollarda ikitəkərli nəqliyyata üstünlük veriləcəkdir. Yenidənqurmada ilk olaraq London, Mançester, Birminhem, Nyukasl və Oksford şəhərləri iştirak edəcəklər. Hazırda bu şəhərlər velosipedçilərin sayına görə liderlərdir.

Dünya təcrübəsindən məlumdur ki, Hollandiyada və Almaniyada bəzi şəhər küçələrində avtomobillərin hərəkəti qadağan olunsa da, xüsusi küçələrdə velosipedçilərin hərəkətinə icazə verilmişdir.

## Qarşıdakı 100 ildə ən arzu edilən ixtiralar

*«Philips» şirkəti orta statistik əhalinin böyük səbirsizliklə gözlədiyi ixtiraları müəyyən etmək üçün sorğu keçirmiş, Böyük Britaniyada min nəfərin fikri öyrənilmişdir.*

Sorğunun nəticələrindən məlum olmuşdur ki, respondentlərin üçdə ikisi qarşıdakı 100 ildə insanı istənilən xəstəlikdən xilas edəcək «universal həb»in yaradılmasını arzulayır. İştirakçıların 20%-i tibdə mühüm nailiyyətlərin əldə olunması naminə kompüter, televizor və qulaqcıqlardan imtina etməyə razı olduğunu söyləmişlər. Digər bir qisim isə hadjetlərdən imtina etməyə hazır olmadığını, lakin saç tökülməsinin, dazlaşmanın əleyhinə effektiv vasitələrin yaradılacağına ümid etdiklərini demişlər.

Respondentlərin cəmi 2%-i evlərində köməkçi-robotların xidmətindən istifadə etmək istədiklərini bildirmişdir. İnsanı müxtəlif dövrlərə apara biləcək «zaman maşını»nın yaradılmasını arzulayanlar da olmuşdur. Arzu edilən innovasiyalar içərisində avtopilotla təchiz edilmiş maşınlar da yer almışdır. Əgər nəzərə alsaq ki, bu cür aparatlar hazırlanma mərhələsindədir və artıq küçələrdə peyda olur, onda bu arzunun digərlərindən daha asan yerinə yetiriləcəyini demək olar.

Sorğu iştirakçılarından ötən əsrdə yaradılmış hansı ixtiraların daha mühüm olduğunu söyləmək də xahiş edilmişdir. Birinci yerdə internetin, ikinci yerdə isə laparoskopiyanın (müasir cərrahiyyə üsuludur, əməliyyat daxili orqanlarda kiçik dəlik vasitəsilə aparılır) adı çəkilmişdir. Respondentlərin 33%-i elektrik kardiostimulyatorunu vacib ixtira adlandırmışdır. Beşliyə smartfon və televiziya da daxil olmuşdur.

Müşahidəçilər sorğunun nəticələrini maraqla qarşılamışlar. Qeyd edilmişdir ki, hər iki halda iştirakçılar öz seçimlərini sağlamlıqla əlaqəli olan ixtira və texnologiyaların üzərində saxlamışlar. Belə bir ciddi tələbat həyat səviyyəsinin artırılması, ətraf mühitdəki dəyişikliklər və insanların öz sağlamlığına ayırdığı diqqətlə izah olunur.

sağlam həyat tərzi

## Parkinson xəstəliyinə nəzarət edən qolbağı

Global Kinetics Corporation» şirkəti Flori adına Nevroloji və Psixi Sağlamlıq İnstitutu ilə birgə parkinson xəstəliyindən əziyyət çəkən pasiyentlərin həyat keyfiyyətinin artırılması üçün nəzərdə tutulmuş «Kinetigraph» adlanan xüsusi qolbağı hazırlamışlar. Onda insanın hərəkətləri haqqında informasiya toplayan akselerometr quraşdırılmışdır. Məhz bunun sayəsində həkimlər insanın səhhəti haqqında məlumat əldə edə, lazım gələrsə müalicə üsulunu dəyişə biləcəklər.

Pasiyentlər qolbağılardan 10 gün müddətində istifadə etmişlər. Bu vaxt ərzində cihaz vasitəsilə bradikineziya (parkinson xəstəliyinin başlanğıcı üçün xarakterik olan hərəkətlərin ləngiməsi) göstəriciləri ölçülmüşdür.

Ümumilikdə, sensorlardakı məlumatların analizi göstərəcək ki, müəyyən preparatları nə vaxt təyin etmək lazımdır və xəstə müalicəyə necə reaksiya verir. «Ağıllı» qolbağılar xüsusilə də pasiyentlərə səs siqnalları vasitəsilə dərmanları vaxtında qəbul etməkdə yardımçı olacaq.



Hazırda bu qolbağılar yalnız xəstəxanalara satılır. «Kinetigraphs»dan dünyanın 9 ölkəsinin (Avstraliya, Almaniya, Hollandiya, Norveç, İsveç, Danimarka, Malayziya, Honkonq, Tayland) 50 xəstəxanasında istifadə olunur. İstehsalçı yaxın gələcəkdə məhsullarını ABŞ və Avropa bazarına çıxarmağa hazırlaşır.

**Müdriklər deyib ki...**

*«Keçmişini bilmədən indiki zamanın əsl mənasını və gələcəyin məqsədlərini başa düşmək mümkün deyil».*

*Maksim Qorki (1868-1936)*

